www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 noyabr 2018-ci il Çərşənbə № 248 (7137) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycana sərt qış gəlir

yazısı səh.6-da

**Gündəm**

### Xarici ölkə səfirliklərimizlə bağlı ilginc iddia - yoxlamalar başlayıb



Ukraynadakı səfirlik binası qalmaqalından sonra İspaniya səfirinin səlahiyyət hədlərini aşaraq çaxır alveri ilə məşğul olması müvafiq qurumları hərəkətə keçirib

yazısı səh.7-də

### Qida Təhlükəsizliyi Agentliyi ərzaq mafiyasına qarşı: kim qalib gələcək?

yazısı səh.12-də

### Gəncədə binada partlayış - 3 ölü

yazısı səh.2-də

### İçərişəhərin qala divarları arasında dolaşan şayiələr - əməkdaşımız suallarına cavab axtardı

yazısı səh.5-də

### Neft Fondu bu şəhərlərdən daşınmaz əmlak alıb - siyahı

yazısı səh.10-da

### Ziya Məmmədovun qohumunun daha bir marşrutu əlindən alındı

yazısı səh.14-də

### Sirr kimi qalan 20 noyabr terroru

yazısı səh.6-da

### ABŞ 907-ci düzəlişi ləğv edə bilər

yazısı səh.8-də

### Benzinin bahalaşması gündəmdən çıxdı - səbəb

yazısı səh.10-da

### İşğalçıya bəd xəbər - Azərbaycana yeni silahlar gətirilir

yazısı səh.11-də

### Dünya İslam dininə meyl edir - səbəblər...

yazısı səh.13-də

### Gürcüstan 600 min adamın bank borcunu silir, bəs biz...

yazısı səh.14-də

# PAŞİNYAN KREMLƏ MEYDAN OXUDU: "BİZİMLƏ HAMI HESABLAŞACAQ!.."

İrəvanın davakar və riskli ritorikasının arxasındakı səbəblər; erməni baş nazir əvəzi seçkiöncəsi "va-bank" gedir...




yazısı səh.9-da

## Müşfiqi diri-diri Mircəfər Bağırovun yaşadığı evin divarına hörüblər - sensasion açıqlama

General Tomsonun, Nəriman Nərimanovun və Mircəfər Bağırovun yaşadığı tarixi bina hansı sirləri gizlədir?

yazısı səh.7-də



### Abel Məhərrəmova kabinetini boşaltmaq üçün vaxt veriblər

yazısı səh.3-də



### İran prezidentinin Bakı ilə bağlı əminliyinin səbəbi

yazısı səh.9-da



Karen Kazaryan

### Erməni diversantın məhkəməsi başladı

yazısı səh.3-də



## Prezident Rusiya Jurnalistlər İttifaqının sədrini qəbul edib

**Prezident İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib. Dövlət başçısı Azərbaycanla Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirib, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd edib.**

Dövlət başçısı Vladimir Solovyovun səfərinin jurnalistika sahəsində əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Vladimir Solovyov Azərbaycanda Rusiya mədəniyyətinə, mətbuatına böyük hörmətlə yanaşıldığını qeyd edərək, məmnunluq hissi ilə ölkəmizdə bütün Rusiya televiziya kanallarının yayımlandığını bildirib. O, Rusiya jurnalistlərinin azərbaycanlı həmkarları ilə daim qarşılıqlı əlaqələr saxlamaq istəyində olduqlarını deyib.

## Ədliyyə naziri və Ali Məhkəmə sədri ordenlə təltif edildi

**Prezident İlham Əliyev Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının məhkəmə və ədliyyə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə sərəncam imzalayıb.**

Modern.az saytının məlumatına görə, sərəncamla ədliyyə naziri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri Ramiz Rzayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif ediliblər.

## Bakıya 70 yeni avtobus gətiriləcək

**Yaxın vaxtlarda Türkiyənin "Anadolu İsuzu Otomotiv Sanayi ve Ticaret" və "BMC Otomotiv Sanayi ve Ticaret" AŞ şirkətlərinin istehsalı olan daha 70 avtobusun Bakıya gətirilməsi nəzərdə tutulur.**

Bu barədə "Xaliq Faiqoğlu" şirkətindən verilən məlumatda bildirilib.

Qeyd edilib ki, "BMC Otomotiv Sanayi ve Ticaret" AŞ ilə 31 avqust 2018-ci il tarixli müqaviləyə əsasən paytaxtımıza "BMC Procity" markalı yeni avtobuslar gətiriləcək:

"Həmçinin "Anadolu İsuzu Otomotiv Sanayi ve Ticaret" şirkəti ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq "İsuzu Citiport" markalı avtobusların yeni partiyasının gətirilməsi təmin ediləcək. Sifariş edilmiş avtobuslar yerli və beynəlxalq standartlara, həmçinin Euro 6 ekoloji standartlarına tam cavab verir.

Şirkət yeni avtobusların alınması istiqamətində bir sıra maliyyə qurumları ilə, eləcə də yerli və beynəlxalq banklarla əməkdaşlıq edir".

"Xaliq Faiqoğlu" MMC-nin əsas məqsədi sərnişinlərə rahat və təhlükəsiz sərnişindaşıma xidməti göstərməkdir.

## Bir gündə yol qəzalarında 5 piyada öldü

**Noyabrın 19-da yol qəzalarında 5 piyada dünyasını dəyişib. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, noyabrın 19-da saat 18 radələrində Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində Sumqayıt şəhər sakini Kamil Hüseynov idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən Zülfü Mustafanı vurub və nəticədə piyada hadisə yerində ölüb.**

Noyabrın 19-da saat 19 radələrində Xəzər rayonunun Qala qəsəbəsi ərazisində Bakı şəhər sakini Mahir Əmirov idarə etdiyi "Renault" markalı avtomobillə yolu keçən paytaxt sakini Fikrət Şahbazovu vurub və nəticədə piyada hadisə yerində ölüb.

Noyabın 19-da saat 19 radələrində Xətai rayonunun Zığ yolu küçəsində Cəlilabad rayon sakini Şahin Əsgərov idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən Bakı şəhər sakini Maral Bədəlovanı vurub və nəticədə piyada hadisə yerində ölüb.

Noyabrın 19-da saat 21 radələrində Abşeron rayonunun Novxanı kəndi ərazisində Bakı şəhər sakini Valeh Qasımov idarə etdiyi "Toyota" markalı avtomobillə yolu keçən kənd sakini Seymur İsayevi vurub və nəticədə piyada hadisə yerində ölüb.

Noyabrın 19-da saat 21 radələrində Salyan rayonunun Çuxanlı kəndi ərazisində rayon sakini Vaqif Tağıyev idarə etdiyi "İsuzu" markalı avtomobillə yolu keçən Şirvan şəhər sakini Rövşən Abdullayevi vurub və nəticədə piyada hadisə yerində ölüb.

# Gəncədə binada partlayış-3 ölü

### Sakinlər müvəqqəti yataqxanaya köçürülüb, tezliklə binanın yerində yenisi tikiləcək








**Gəncədə yaşayış binasında partlayış baş verib, 3 nəfər ölüb, 1 nəfər yaralanıb. Şəhərin Füzuli parkının yaxınlığında, Şahlar Hüseynov küçəsi 13 ünvanında yerləşən 4 mərtəbəli binada qeydə alınan partlayışın qaz sızmasından meydana gəldiyi ehtimal olunur. Olay zamanı binanın bir hissəsi çöküb.**

Axtarış xilasetmə işləri nəticəsində dağıntılar içərisindən 24 yaşlı Cuma Saleh oğlu Cumazadənin, 47 yaşlı Nigar Tağı qızı Tağıyeva və onun oğlu 1994-cü il təvəllüdlü Hüseyn Oktay oğlu Heydərovun meyiti tapılaraq çıxarılıb. Dağıntılar altından çıxarılan yaralı, 1997-ci il təvəllüdlü Orxan Oktay oğlu Məmmədov xəstəxanaya çatdırılıb.

Bina sakinlərinin əsasən hərbçi ailələrindən ibarət olması xəbərləri var. FHN-in Gəncə Regional Mərkəzinin və regionda olan nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin, Xüsusi Riskli Xilasetmə Xidmətinin, Mülki müdafiə qoşunlarının müvafiq xilasetmə qüvvələri qeyd olunan ünvanda xilasetmə işlərini həyata keçirirlər. Axtarış işlərinin sürətləndirilməsi üçün əlavə olaraq nazirliyin Xüsusi Ruskli Xilasetmə Xidmətinin xilasedicilərı və kinoloji qrupu xüsusi təlim keçmiş itlərlə Aviasiya dəstəsinin helikopteri ilə Bakıdan Gəncə şəhərinə aparılıb. Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin digər rəhbər şəxsləri hadisə yerində olub. Nazir Kəmaləddin Heydərov qəza-xilasetmə işlərinin gedişatı ilə yaxından tanış olub, xilasetmə tədbirlərinin daha operativ həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verib.

Mətbuata açıqlamasında K.Heydərov "İlkin ehtimala görə, partlayış binanın ikinci mərtəbəsindəki mənzildə qaz sızması nəticəsində baş verib"-deyə, bildirib.

**Hadisə şahidlərindən biri deyib ki, səhər tezdən bazara gedərkən partlayış olub:** "Əvvəl elə bildim zəlzələ oldu. Durub çölə qaçdım. Gəldim, dedilər ki, binanın bir hissəsi yoxdur. İçəridən də oğlanla anasının səsi gəlirdi, "bizi qurtarın" deyirdi".

Binanın digər sakini Tükəzban Ağayeva: "Səhər saat 05:00-da çay qoymağa durdum. 05:30 radələrində partlayış oldu. Duman oldu, daha heç nə başa düşmədik. Balkona çıxmaq istəyəndə gördüm nə aynam var, nə qapım. Divarımız çatlayıb. Su çənləri partlayıb, evimizi su basıb".

Səhiyyə Nazirliyindən bildirilib ki, dağıntılar altından çıxarılan şəxs hərbi qulluqçu olduğu üçün hazırda Gəncə hərbi hospitalına yerləşdirilib. Onun sözlərinə görə, hadisə nəticəsində dünyasını dəyişən şəxs də hərbçi olub.

**Gəncəni təmsil edən deputat Naqif Həmzəyev bakıpost-a deyib ki, dövlət tərəfindən lazımi tədbirlər həyata keçirilir:** "Sakinlərin müvəqqəti təmirli yataqxanaya köçürülməsi məsələsi həllini tapıb. Böyük ehtimalla, tezliklə bu binanın yerində yeni bina tikiləcək və sakinlər yeni mənzillərlə təmin olunacaq. Dövlət bu məsələni tam nəzarətə götürüb. Həyatını itirən şəxslərin də yas mərasiminin təşkili həyata keçiriləcək. Dövlət üzərinə düşən bütün vəzifələri yerinə yetirəcək".

**Hadisə ilə bağlı araşdırma aparılır.**

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

## İrandan Azərbaycana heroin keçirmək istədilər

**Dövlət Gömrük Komitəsinin Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında, idarənin Astara gömrük postunda İrandan gələn bu ölkənin vətəndaşı Khajouy Eskandiani Farzandeh Mohammad Sadeghi saxlanılıb.**

Komitədən verilən məlumata görə, sorğu-sual zamanı vətəndaş üzərində və əl yükündə gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı onun üzərində qanunla qadağan edilmiş predmet aşkarlanmasa da, daxili orqanlarının rentgen müayinəsi zamanı İran vətəndaşının düz bağırsağında 7 ədəd ayrı-ayrı sellofan bükümlərdə, ümumi çəkisi 190 qram olan açıq qəhvəyi rəngli narkotik vasitə - heroin aşkarlanıb.





## Türkiyənin Baş Qərargah rəisi Bakıda

**Azərbaycan prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident qeyd edib ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirib. Dövlətimizin başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycanla Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirib. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

## Sabiq icra məmurunun məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində rüşvətə təhrik etməkdə və dələduzluqda ittiham olunan Asif Məmmədovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb.**

Musavat.com-un xəbərinə görə, prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məhkəmənin baxış iclası noyabrın 27-nə təyin edilib.

Qeyd edək ki, A.Məmmədov Ələkbər Zeynalov və Naibə Piriyevanı işə düzəldəcəyinə vəd verib. Lakin sonradan keçmiş icra məmuru vədinə əməl etməyib. Hər iki şəxsin hüquq-mühafizə orqanlarına şikayəti əsasında saxlanılan A.Məmmədov barəsində Cinayət Məcəlləsinin 34, 312-ci (rüşvətə təhrik etmə), 178.2.2-ci (dələduzluq, təkrar törədildikdə) və 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə ittiham irəli sürülüb və məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Xatırladaq ki, A.Məmmədov daha əvvəl Salyan Rayon Məhkəməsi və Bakı Ağır Cinayətlər Məhkəməsində icra məmuru vəzifəsində çalışıb.

## Bitkoin 18 faiz ucuzlaşdı

**Dünyanın aparıcı kriptovalyutası sayılan bitkoin son 24 saat ərzində 18%-ə yaxın ucuzlaşıb.**

Bu barədə "Coinmarketcap" portalına istinadən xəbər verilir.

Məlumata görə, hazırda rəqəmsal pulun dəyəri təxminən 4 400 dollardır.

**Ermənistanın Tavuş vilayətində yerləşən Berdavan şəhərinin sakinləri noyabrın 18-də yolu bağlayaraq, hakimiyyətdən 4 aydan bəri Azərbaycanda saxlanılan 34 yaşlı Karen Kazaryanın geri qaytarılmasını tələb ediblər. Etirazçılarla Tavuş vilayətinin qubernatoru Vahe Kalumyan danışıqlar aparıb. O, insanları sakitləşdirərək izah etməyə çalışıb ki, hakimiyyət Kazaryanın geri qaytarılması üçün səylərini əsirgəmir. K. Kazaryanın anası deyib ki, onların etiraz aksiyası keçirməkdən başqa çarəsi yoxdur.**

# Erməni diversantın məhkəməsi başlandı

## Nikol Paşinyan kəlbəcərli girovlarla erməni diversantların dəyişdirilməsi haqda danışdı



Noyabrın 19-da isə Berdavan sakinləri Gürcüstana gedən yolu bir neçə saat bağlı saxlayıblar. Habelə İrəvanda baş nazirin iqamətgahı qarşısında aksiya keçiriblər.

Xatırladaq ki, diversant Karen Kazaryan bu il iyulun 15-də Azərbaycan tərəfinə keçərkən saxlanılıb. Noyabrın 20-də isə Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Dadaş İmanovun sədrliyi ilə erməni diversant Karen Kazaryan işi üzərində baxış iclası keçirilib.

**Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Kəramət Əliyevin sədrliyi ilə keçirilən prosesdə zərərçəkən Nazim Hadiyev dindirilib. N.Hadiyev K.Kazaryanın hazırda sahibi olduğu bazarda partlayış etmək istədiyi barədə o, tutulduqdan sonra eşitdiyini deyib:** "Bu bazar sovet dövründə Qazax rayonunda mərkəzi bazar kimi fəaliyyət göstərib. Hazırda orada 44 obyekt var və hər gün səhər saat 05.00-dan 18.00-a qədər fəaliyyət göstərir. Mərkəzi küçədə olan bazarda 250 nəfərə yaxın şəxs satışla məşğuldur. Oraya gündəlik 1000 nəfərdən çox alıcı gəlir. Əgər orada terror aktı törədilsəydi, xeyli sayda insan həlak olar, külli miqdarda maddi ziyan da dəyərdi. Ona görə xahiş edirəm ki, bu terrorçuya layiq olduğu cəzanı verərdiniz".

**N.Hadiyev dindirmə zamanı onu da bildirib ki, həmin bazar sovetlər dövründə ermənilərin daha çox gəldiyi məkanlardan olub:** "Onlar oranı yaxşı tanıdıqlarından partlayış törətmək üçün əlverişli məkan sayıblar".

Sonra hakimin qərarı ilə məhkəmə prosesi 27 noyabr tarixinə təyin edilib.

Məhkəmə prosesində kəlbəcərli girovlar Dilqəm Əsgərovun və Şahbaz Quliyevin azad olunması üçün beynəlxalq təşkilatlarda hüquq müdafiəçisi olaraq iş aparan Demokratiya və İnsan Hüquqları Mərkəzinin sədri Əhməd Şahidov da iştirak edib.

**Ə.Şahidovun "Yeni Müsavat"a verdiyi məlumata görə, ilk məhkəmə baxışı iclası çox yüksək səviyyədə, Avropa standartları səviyyəsində, açıq şəkildə həyata keçirilib:** "Azərbaycan hökuməti Karen Kazaryanı pulsuz vəkillə təmin edib. Onun üçün iki erməni dili və bir rus dili tərcüməçisi ayrılmışdı. Azərbaycan tərəfi bir humanist jest olaraq Karen Kazaryanı məhkəmə zalına əli qandallı yox, əlləri açıq şəkildə gətirilməsini təmin etmişdi. Məhkəmə media və ictimaiyyət üçün açıq keçirildi.

Baxış iclası başlayanda hakim Karen Kazaryana hüquqlarını izah elədi. Kazaryanın psixoloji durumu çox yaxşı vəziyyətdə idi, heç nədən şikayəti yox idi. Bütün məlumatları erməni dilində qəbul edirdi və başa düşdüyünü bildirdi. Sonra dövlət ittihamçısı ittiham aktını oxudu. O ittihamlar sübuta yetirilsə, Karen Kazaryanı 20 ilə yaxın azadlıqdan məhrumetmə cəzası gözləyir".

**Karen Kazaryanın yaxınlarının və həmkəndlilərinin onun azad edilməsi tələbi ilə keçirdikləri aksiyalar baş nazir Nikol Paşinyanı qəzəbləndirib. Virtualaz.org erməni KİV-lərinə istinadən xəbər verir ki, Paşinyan noyabrın 20-də keçirdiyi mətbuat konfransında Kazaryanın məsələsi haqda danışıb. Deyib ki, Kazaryanın qohumlarının onunla görüşmək istədiyi haqda məlumat alıb. Və tapşırıb ki, bu görüşü təşkil etsinlər. Paşinyan deyib ki, bu aksiyaların səbəbini anlamır:** "Mənim arvadım iki dəfə Kazaryanın ailəsinə baş çəkib. Məsələ heç vaxt diqqətdən kənarda olmayıb. Lakin bu günlərdə keçirilən aksiyalar sual doğurur-bu aksiyalar kimə qarşı yönəlib? Əgər Azərbaycana qarşı yönəlibsə o zaman yolu bağlamaq nəyə lazım idi, hansı ki, Azərbaycanın strateji hədəflərindən biri bu yolun bağlanmasıdır. Əgər bizə qarşı yönəlibsə, və hesab edirlərsə ki, problemə lazımi diqqət ayırmırıq, o zaman xatırladıram ki, arvadım iki dəfə ailəyə baş çəkib. Elə presedent olubmu ki, bu cür situasiyaya düşən ailəyə belə diqqət ayrılsın? Əgər söhbət ondan gedirsə ki, Ermənistan səyləri artırmalıdır, o zaman başa düşmək lazımdır ki, proses Ermənistanın maraqlarına cavab verəcəkmi? Yaxud tələb etmək olarmı ki, məsələ istənilən qiymətə həll edilsin və ictimaiyyətin buna necə yanaşacağı əhəmiyyət daşımasın? Bunlar sadə məsələlər deyil".

**N.Paşinyan xatırladıb ki, Azərbaycanda daha bir Ermənistan vətəndaşı saxlanılır-Zaven Karapetyan. Amma ona görə heç kim yolu bağlamır.** "Niyə ona görə yolu bağlamırlar? Ona görə ki, yetimdir? Bu məntiqə söykənirik?"-o sual edib.

**Paşinyan qeyd edib ki, Azərbaycan tərəfi əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsini təklif edib.** "Biz buna getməliyikmi? Bəs biz öldürülənlərin ailəsindən soruşmuşuq?"- o, Dağlıq Qarabağda girov saxlanılan Azərbaycan vətəndaşı Dilqəm Əsgərovu və Şahbaz Quliyevi xatırladaraq bildirib.

"Belə çıxır ki, Azərbaycana iki Ramil Səfərov da qaytaraq? Kazaryanlar ailəsinin faciesini başa düşürəm və anlayışla qarşılayıram. Amma birbaşa deyirəm-Gürcüstana gedən yolu bağlamaq mənə aydın deyil. Yəni nəsə edə bilərdik və bunu etməmişik?"-Paşinyan deyib.

Xatırladaq ki, bu günlərdə Azərbaycanın Əsir, Girov və İtkin Düşmüş şəxslərin axtarışı üzrə Dövlət Komissiyasının sədri Mədət Quliyev Ermənistana əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsini təklif edib. Lakin Ermənistan tərəfi əvvəlcə bu təklifə məhəl qoymamağa çalışıb, daha sonra Azərbaycan tərəfinin onlara belə təklif vermədiyini bildirib. Nəhayət, deyiblər ki, Dağlıq Qarabağda girov saxlanılan Azərbaycan vətəndaşlarını heç bir halda dəyişmək fikrində deyillər. N.Paşinyanın mətbuat konfransında dediklərindən də belə görünür ki, Ermənistan hakimiyyəti girovların dəyişdirilməsi məsələsində konstruktiv mövqedən, beynəlxalq humanizm prinsiplərindən uzaqdırlar.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Abel Məhərrəmova kabinetini boşaltmaq üçün vaxt veriblər

## Sabiq rektorun dərin depressiyaya düşdüyü, telefonlara cavab vermədiyi xəbəri var



**Vəzifəsindən qovulan Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmovun harada olması ilə bağlı ziddiyyətli məlumatlar dolaşır. Madriddəki "Eurostar Madrid" hotelində bərk içib Azərbaycan nümayəndə heyətinin üzvləri, konfransı təşkil edən Əli Evsenlə dava saldığı barədə xəbərlərdən dərhal sonra işdən qovulmasının Abel Məhərrəmova çox pis təsir etdiyi bildirilir.**

Abel Məhərrəmovun hazırda Bakı ətrafındakı dəbdəbəli bağ evlərindən birində olduğu, telefonlara cavab vermədiyi xəbəri də var. Bu arada Abel Məhərrəmova universitetdəki ucu-bucağı olmayan kabinetini boşaltmaq üçün xəbər göndərilməsi haqda da məlumat yayılıb. Sabiq rektora kabineti boşaltmaq üçün 1 həftə vaxt verilməsi də gələn məlumatlar sırasındadır. Abel Məhərrəmov BDU-ya rəhbərlik etdiyi dövrdə özünə iri kabinet düzəldib. Həmin kabinetdə xüsusi hazırlanmış istirahət və qonaqlar üçün otaqların olduğu deyilir. Bildirilir ki, istirahət otağında Abel Məhərrəmovun çaxır kolleksiyası olan xüsusi ağacdan hazırlanmış mini bar da var. Həmin barın bahalı ağacdan olmaqla özəllikləri haqda belə iddialar var: - havanın temperaturunu 21 dərəcədən aşağı saxlayır, bu, çaxır saxlamaq üçün vacib şərtdir. Həmin bar kolleksiyadakı çaxırları qızdırıcıdan və ya günəş işığından qoruyur. Sabiq rektorun barında 100-ə yaxın əla növ şərabın saxlandığı və hər birinin çox bahalı olması deyilir. Belə barlarda temperaturu nizamlayıb, şərabları ən uyğun şəkildə illərlə qorumaq mümkündür. Abel Məhərrəmovun təkcə kabinetindəki kolleksiyasında saxladığı şərabların toplam qiymətinin 100 min manatı aşdığı iddia edilir.

Qeyd edək ki, A.Məhərrəmov işdən çıxarılması haqda xəbəri, özünün dediyinə görə, pedaqoji kollektivin iclasını keçirərkən alıb. Bundan sonra BDU-nun divarları arasında onu görən olmayıb. Beynəlxalq konfransda içib dava salmasından sonra Abel Məhərrəmovun İspaniyada səfir olan oğlunun karyerası da sual altına düşüb. Yayılan xəbərlərdə qeyd olunurdu ki, Abel Məhərrəmov həmin qalmaqallı konfransa gedərkən İspaniyaya çəlləklərdə 2 ton ağırlığında şərab aparıb. Həmin şərab İspaniyada ispan şərabı adı altında qablaşdırılıb və bu dəfə butulkalarda Bakıya qaytarılıb - Abel Məhərrəmovun restoran və şadlıq evlərində satılması nəzərdə tutulub. İspaniyadakı həmin məşum konfransa gəldikdə isə onu artıq 3 ildir ki, Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadənin qudası, Türkiyə əsilli biznesmen, bir vaxtlar Azərbaycanda iri biznesi olan Əli Evsen təşkil edir. Bu həmin Əl Evsendir ki, bir neçə il əvvəl barəsində İnterpol xətti ilə beynəlxalq axtarış elan edilmişdi və İspaniyada həbs olunmuşdu. Əli Evsen Misirin devrilmiş diktatoru Hüsnü Mübarəkin pullarının Avropada yuyulmasını təşkil etməkdə şübhəli bilinirdi.

Amma necə oldusa Evsen bu ittihamlardan sıyrılıb çıxa bildi və indi göründüyü kimi, İspaniyada öz adına fond təsis edib. "Evsen Foundation" kifayət qədər ambisiyalı işlərlə-beynəlxalq səviyyədə dini tolerantlıq və mədəniyyətlərarası dialoq formalaşdırmaqla məşğuldur. 2016-cı ildən Madriddə bu mövzuda konfranslar təşkil edir və hər dəfə konfransa Azərbaycandan şeyxülislam qudası ilə yanaşı müxtəlif dinlərin nümayəndələrini, Milli Məclisin üzvlərini və s. qatılır. Builki konfrans isə qalmaqalla, habelə Abel Məhərrəmovun vəzifədən çıxarılması ilə nəticələndi...

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 248 (7137) 21 noyabr 2018



# Qədəminə gül düzülən prezidentin ölkəsinin süpürgəçilər ordusu

**Xalid KAZIMLI**

**İnternet resurslarında Tacikistanın prezidenti İmomali Rahmona aid bir video varmış, dünən sosial şəbəkədə paylaşmışdılar. Maraqlı videodur, əttökən bir mənzərəni əks etdirir.**

Videokadrlarda görünür ki, Asiya ölkələrinin hansındansa Rahmonun yüksək mənsəbli qonağı gəlib və o, qonağı ilə birlikdə qırmızı xalının üzərində "Oskar" mükafatı almış kino ulduzları kimi şəstlə addımlayır.

Bu görüntüdə, əlbəttə, pis bir şey yoxdur. Bütün prezidentlər ali qonaqlarının şərəfinə təntənəli qəbul mərasimləri təşkil edirlər. Ancaq tacik prezidentin presedentində fərq odur ki, o və qonağı qırmızı xalının üzərində addımlayarkən hər iki tərəfdə dayanmış milli geyimli gənclər əlahəzrətlərin ayaqlarının altına qızılgül ləçəkləri səpirlər.

Bu, orta əsrlər padşahlarına xas olan hörmət-izzətli pişvaz adətidir və müasir dünyada ciddi prezidentlərin, baş nazirlərin heç biri belə mənasız təmtərağa yol vermir. Padşah keçən yollara gül-çiçək səpilməsi epizodlarını artıq yalnız filmlərdə görmək olar, praktikada hərdən-hərdən rast gəlinən olay deyil.

Ancaq işə baxın, ucqar və kasıb Tacikistanın Kulyab vilayətinin ucqar və kasıb Danqara kəndində doğulmuş, sırf sovet dövlətinin "bərabərlik mərifəti" sayəsində yetişərək ölkə başçısı olmuş Emomali Rahmon özünü saf qanlı zadəgan nəslindən biriymiş kimi aparır, hesab edir ki, onun qədəm basdığı yerlərə çiçək ləçəkləri səpilməlidir.

Dünyanın ən hündür bayraq dirəyinin Tacikistanda olmasıyla fəxr edən bu Asiya diktatorunun ölkəsinin yüz minlərlə yoxsul mühaciri isə Rusiyanın şəhərlərində ən qara işləri görməklə pul qazanır. Ruslar hərdən kinayə qarışıq zarafatla yazırlar ki, taciklər olmasa, süpürgələrini qoyub tətil etsələr, iki günə Moskvanı zibil basar. Tikintilərdə suvaqçılıq etmək üstündə taciklərlə özbəklərin kütləvi davaya çıxdıqları barədə günaşırı xəbərlər gəlir.

Amma belə bir ölkənin rəhbəri özünü Avropa krallarından artıq sayır.

Bu, nədən qaynaqlanır? Ondan ki, tacik xalqı Rahmonun bu kaprizlərinə, oğlunu Aşqabad meri təyin etməsinə, digər qohumlarına yüksək vəzifələr paylamasına, bu kasıb dövləti varlı kulyablıların idarə etmələrinə şərait yaratmasına "mətanət"lə dözür.

Məsələnin mahiyyəti budur: heç kim durduğu yerdə diktator olmur. Adamı yaxın ətrafı, sadiq və itaətkar tərəfdarları, yaltaq və mənfəətpərəst əyanları, hər sözünü qanun kimi qəbul edən və dərhal icra etməyə çalışan qulbeçələri diktator edir.

Diktatorluq xüsusi bir məziyyət, qabiliyyət, bacarıq deyil. Stalin dirilib gəlsə, müasir Finlandiyada hakimiyyətə gələ bilməz, lap gəlsə də bir müddətdən artıq iş başında qala və diktator ola bilməz. Çünki müasir finlər ona itaət etməz, onun hər şeylə hazır, nökəri, cəlladı olmaq üçün növbəyə durmazlar.

Hitler də artıq müasir Almaniyada siyasi uğur qazana bilməz. Təkcə ona görə yox ki, almanlar ona irad bildirər, "gəlmişdin, gördük, sənə görə almanlar zorlanmışlıq sindromundan hələ də qurtulmayıb" deyərlər. Sadəcə, indilikdə Almaniyada Hitler kimi düşünənlərə yer yoxdur. Gələcəyi isə bilmək olmaz.

Amma Səddam Hüseyn və Müəmmər Qəzzafi bu gün geri dönsələr, İraqda və Liviyada yenidən diktator ola bilərlər. Çünki şərtlər müsaiddir. İraq və Liviya xalqları hələ də "dəmir əlli liderlər" arayır və onların dövründəki qəbiristanlıq sabitliyinin həsrətini çəkir.

Bəlkə də müasir dövrün ən sərt və ən xoflu diktatorlarından biri olmuş İslam Kərimovun yerinə gələn Şavkat Mirziyayev təbiəti etibarilə mülayim, sərtliyə meylli olmayan biridir, amma o, Kərimovun düzüb-qoşduğu idarəetmə mexanizminin başında oturaraq eyni cür işləməyə məhkumdur. Çünki özbək xalqı bu cür istəyir.

Onların qonşuluğundakı qırğızlar isə bu cür idarə edilmələrini istəmirdilər, ona görə Kərimova bab olan Bakiyevi devirdilər. O vaxtdan bəri qırğızlar daha iki dəfə prezident dəyişiblər və artıq heç kəsin onların üzərində diktatorluq etməsinə izn vermək fikrində deyillər.

Taciklər isə Rahmona bu icazəni verirlər. O da öz ayağı altına gül səpdirir.

İnkişaf etmiş ölkələrin insanları bu kimi qədimdən qalmış kral-zadəgan adətlərinə gülür, başlarını bulayır, adamın səviyyəsi haqqında dolğun rəy gəlirlər.

Şərq gerçəkdən də incə məsələdir, tapdaq altında qalan gül ləçəyi qədər incə...

# "Proseslər Ermənistanın ziyanına cərəyan edir"

## Şair Ramaldanov: "Azərbaycan işğalçı ölkəyə sübut etdi ki..."

**Azərbaycan prezidenti İlham Əliyevin Minskə səfəri və belarus həmkarı Aleksandr Lukaşenko ilə görüşü, həmçinin iki dost ölkə arasında əldə olunmuş yeni razılaşmalar Ermənistanı ciddi şəkildə təlaşlandırıb. İşğalçı ölkənin rəhbərliyi hətta 1941-45 müharibəsini xatırladaraq babalarının Belarus uğrunda döyüşməsindən, marşal Baqramyanın Belarusu azad etməsindən danışıb və Minskdən narazılığını ifadə edib.**

Ancaq fakt budur ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) daxilində ikinci zərbəni alıb. Baş katibliyin Belarusa həvalə olunması barədə prinsipial razılaşmadan sonra Bakı ilə Minskin yeni silah anlaşması bağlaması Paşinyan hakimiyyətini ciddi narahat edib. Vəziyyəti təhlil edən ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov "Yeni Müsavat"a Azərbaycan-Belarus əməkdaşlığının perspektivləri barədə maraqlı fikirlər söylədi.

*- Cənab polkovnik, Belarusla hərbi əməkdaşlıq Azərbaycan üçün nələri vəd edir?*

- Ümumiyyətlə, Ermənistanın narahat olmasına əsas var. Əsas da Azərbaycan Silahlı Qüvvələrinin gücü, Azərbaycanın dəyişməyən mövqeyidir ki, Azərbaycan nə yolla olur-olsun, öz torpaqlarını işğalçılardan təmizləyəcək və ərazi bütövlüyünü bərpa edəcək. Bundan əvvəl dövlət başçımızın mövqeyi Paşinyanı danışıqlar masası ətrafına oturtmağa məcbur etdi. Eyni zamanda Belarusla bütün istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində əlaqələr yüksəlməyə doğru gedir. Mən deyərdim ki, bu əməkdaşlığın həm siyasi, həm də hərbi əhəmiyyəti böyükdür. Çünki Ermənistanın daxil olduğu KTMT-nin digər bir üzvü Belarusla əlaqələrimiz çox sıxdır və bu gün biz hansı silahı istəyiriksə, bu dövlətdən ala bilirik. Üstəlik, təşkilatın digər üzvü Rusiyadan da lazımi silahları alırıq. Belarusla hərbi-texniki əməkdaşlığımız illərdir ki, davam edir. Biz Belarusdan "Polonez" raketlərini almışıq, hansı ki, bunlar "İsgəndər" raketlərinə bərabərdir. O zaman da ermənilər çox əl-ayağa düşdülər. İndi də Ermənistan hakimiyyəti ata-babalarını da yada salır. Amma Azərbaycan və Belarus arasındakı səmimiyyət, Azərbaycanın iqtisadi gücü, geosiyasi arenada nüfuzu Belarusun öz silah bazarını bizim üzümüzə açmağa səbəb olub. Belarusun inkişaf etmiş hərbi-sənaye kompleksi var. Vaxtilə bu hərbi-sənaye kompleksi sovetlər birliyinin bir hissəsi idi. Bu mənada, əlbəttə, Belarusun silah sənayesi bizim maraq dairəmizdədir. Özü də Belarus o silahları tək bizə yox, bir neçə dövlətə satır.

*- Azərbaycan prezidentinin səfəri zamanı imzalanmış saziş hansı silahların alınmasını özündə ehtiva edir?*



- Bu gün daha çox Azərbaycanın maraq dairəsində olan hava hücumundan müdafiə sistemləridir. Bilirsiniz ki, Azərbaycanda sovetlərdən qalma hava hücumundan müdafiə sistemləri var. O sistemləri daha da müasirləşdirmək, yeni radarlarla əvəz etmək, bununla da həmin sistemlərin imkanlarını daha da artırmaq zərurəti yaranır. Belarus hava hücumundan müdafiə sistemləri ilə bağlı Çinlə birgə fəaliyyət göstərirdi və artıq o fəaliyyətin nəticələri var. İndi birgə istehsal olunmuş hava hücumundan müdafiə sistemləri yeni nəsil hava hücumundan müdafiə sistemlərinin tələblərinə cavab verir. Bu baxımdan Azərbaycan o sistemlərin bu gün hava sahəsinin bağlanması, ərazinin xüsusiyyətlərinin nəzərə alınması uyğunluğunu, müasirliyi və qiymətini nəzərə alır. Bu parametrlər hazırda Azərbaycan üçün uyğun olduğu üçün ölkəmiz hava hücumundan müdafiə sistemlərini almağa qərar verib. Bunlar da Azərbaycanın hava məkanını daha etibarlı qorumağa və düşmənin hər hansı zərbəsinin qarşısını almağa imkan verəcək sistemlərdir.

Digər tərəfdən, Belarus mütəxəssisləri Venesuela dövlətinin bütün hava hücumundan müdafiə sistemini qurub. Əlbəttə, Azərbaycan mütəxəssisləri o təcrübədən faydalanacaqlar və o mütəxəssislərlə müəyyən təcrübə mübadiləsi aparacaqlar. Hesab edirəm ki, bunlar son sistemlər deyil, onların digər istehsal olunan silah-sursatları da Azərbaycan üçün maraqlıdır.

*- Azərbaycanla Belarus arasında birgə silah, hərbi texnika istehsalı, yaxud modernləşdirilməsi istiqamətində anlaşma əldə oluna bilərmi?*

- Bu haqda hərbi sənaye ilə bağlı Bakıda keçirilən sərgidə müzakirələr gedirdi. Bu istiqamətdə də məsləhətləşmələr başlayıb. Düşünürəm ki, bununla bağlı da Azərbaycanla Belarus arasında faydalı sazişlər bağlanacaq.

*- Azərbaycan həm də NATO sisteminə müraciət edən ölkədir. Bu mənada sovet hərbi sənayesinə istinad edən Belarusla hərbi sahədə əməkdaşlıq hansısa narahatlıq yaratmır ki?*

- Yox. Birincisi, əlbəttə, biz NATO ölkələri ilə də lazım olan texniki əməkdaşlığı edirik. Ancaq Qərb dövlətləri və NATO-nun silah-sursatı, eyni tipli sistemləri həddindən artıq bahadır. Digər tərəfdən, burada dil, uyğunluq məsələsi var. Çünki bizdə qurulan hava hücumundan müdafiə sistemlərini yeniləmək üçün əlbəttə, onlara uyğun sistemlər olmalıdır. Bunu nəzərə alsaq, əlbəttə, postsovet məkanındakı sənaye məkanları bizim marağımızda ola bilər. Digər tərəfdən, biz bilirik ki, Çin də keçmiş sovet silahları ilə özünün hərbi sənayesini qurub. Ona görə də Çinlə Belarusun əməkdaşlığı davam edir.

*- Azərbaycan həm də "Rus NATO"-sunun-KTMT-nin daxilində təlatüm yaratmağı, Ermənistanı mat vəziyyətində qoymağı bacardı. KTMT baş katibliyinin üçün Belarusa keçməsi, Ermənistanın kənarda qalması Azərbaycana əlavə şans verirmi? Yeri gəlmişkən, İrəvanın Astana və Moskva ilə münasibətləri də yaxşı deyil...*

- Düzgün qeyd etdiniz. Mən də hesab edirəm ki, bu əməkdaşlığın siyasi cəhətdən faydası çox böyükdür. Azərbaycan Ermənistana sübut etdi ki, o, haranın üzvü olursa-olsun, Azərbaycan hər cəhətdən ondan güclüdür. Ermənistan KTMT-nin üzvü olduğu halda belə, Azərbaycan siyasəti, öz gücü, öz imkanları ilə Ermənistanın o təşkilatda təsirini sıfıra endirdi. Bütün bugünkü münasibətlər, Belarusla saziş də onu göstərdi ki, Azərbaycanın istər Rusiya, istər Qazaxıstan, istər Belarus, istərsə də Orta Asiya dövlətləri arasında nüfuzu Ermənistandan qat-qat üstündür. Ona görə də Ermənistan cəmiyyəti görür ki, İrəvanın üzv olduğu təşkilatlar belə, Azərbaycana açıq şəkildə silah satır və münasibətləri getdikcə istiləşir. Əlbəttə, belə olan halda Qarabağ məsələsini həll etmək üçün bir platforma yaranır. Çünki Ermənistan Rusiya, Belarus, Qazaxıstana müəyyən qədər arxalanırdı, bu təşkilatın imkanlarından istifadə edəcəyi barədə öz cəmiyyətinə yalan vədlər vermişdi. Ancaq Azərbaycanın KTMT ölkələri ilə münasibətləri və əməkdaşlıqla bağlı atılan addımlar onu göstərir ki, həm də Dağlıq Qarabağ məsələsinin həlli zamanı bu təşkilatın Azərbaycana maneçiliyi minimuma enib. KTMT-nin baş katibi postunun rotasiya qaydası ilə Belarusa həvalə olunacağının açıqlanması və ora Bakıda hərbi təhsil almış zabitin namizəd göstərilməsi təbii ki, Ermənistana zərbə oldu. Ermənistan çox cəhd göstərdi ki, bunun qarşısını alsın. Ermənistanın Rusiya ilə münasibətləri, İrəvanın KTMT-də itirilmiş nüfuzu və s. məsələlər bu qənaəti yaradır ki, proseslər işğalçı ölkənin xeyrinə cərəyan etmir.

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 248 (7137) 21 noyabr 2018

# İçərişəhərin qala divarları arasında dolaşan şayiələr - əməkdaşımız suallarına cavab axtardı

## Qalada söküntü bumunun başlanması haqda deyilənlərə rəsmi cavab verildi; yeraltı hamamın və "Bakı Xanlarının evi"nin taleyi haqda da maraqlı bilgilər var

**Bir müddətdir, həm sosial şəbəkələrdə, həm də mətbuatda İçərişəhərdə aparılan söküntü və təmir işləri ilə bağlı müxtəlif məlumatlar yayılır. Həmin informasiyalar arasında tarixi İçərişəhərin həm qala divarlarının sökülməsi, həm də qala ərazisindəki tarixi abidələrin məhv edilərək yerində iaşə obyektlərinin tikilməsi yer alır. Həmçinin qala içərisində olan iki məşhur restoranın sökülməsi də diqqət mərkəzində idi. Ona görə ki, restoranların sökülərək yerində daha böyük mehmanxananın tikilməsi ilə qala divarlarının uçurulacağı deyilirdi.**

Bu məlumatların yayılması haqlı olaraq böyük narazılığa səbəb oldu. "Yeni Müsavat" qəzeti olaraq məlumatların nə dərəcədə doğru olub-olmadığını araşdırmağa çalışdıq. Bu məqsədlə də İçərişəhərə üz tutduq.

**Sökülən restoranlar...**

Əvvəlcə qala ərazisində olan və hazırda söküntüsü davam edən "Manqal" və "Təndir" restoranlarının olduğu küçəyə üz tutduq. Hər iki restoranın demək olar ki, tamamilə söküldüyünü müşahidə etdik. Taxta konstruksiyalardan yığılan restoranların söküntüsündən sonra arxa hissədə olan qala divarlarını görmək mümkündür.

Ərazidə olarkən gözümüzə heç bir işçi qüvvəsi dəymədi ki, onlardan işlərin gedişatı barədə məlumat öyrənək. Yaxınlıqdakı obyektlərin işçilərindən isə öyrəndik ki, söküntü işləri qısa müddətlik dayandırılıb. Həmsöhbətlərimiz eşitdiklərinə əsasən yeni obyektlərin tikiləcəyini təsdiqlədilər.

**Hasar arxasındakı tarixi abidələr...**

Növbəti üz tutduğumuz ünvan isə elə restoranların yaxınlığında olan "Bakı Xanalarının evi" adlanan tarixi abidə oldu.

"Bakı Xanalarının evi"nin sökülərək yerində mehmanxana tikiləcəyi deyilirdi. Həmçinin bu qədim tarixi abidənin yanında aşkar edilmiş yeraltı hamamın da taleyi ilə bağlı müxtəlif fikirlər səsləndirilirdi. Hamamın da uçuracağı və yerində iaşə obyekti tikiləcəyi xəbərləri yayılmışdı.

Hər iki qədim abidənin hasara alındığının, ərazidə təmir-tikinti işlərinin aparıldığının şahidi olduq. Görülən işlərlə bağlı məlumat öyrənmək istədik. Lakin mühafizə xidmətindən bildirildi ki, bu, mümkün deyil. Nə qədər israr etsək də ən azından ərazidə iş aparan şirkətin nümayəndələrindən biri ilə belə görüşümüzə şərait yaradılmadı. Bildirdilər ki, bu barədə yalnız idarədən məlumat öyrənmək mümkündür.

İdarə deyərkən də İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsini nəzərdə tuturdular.

**İçərişəhərlə bağlı öyrəndiyimiz rəsmi məlumatlar...**

Bu qədər yolu gəlmişkən bir neçə dəqiqəlik məsafədə yerləşən idarəyə baş çəkməyi qərarlaşdırdıq. Əslində idarəyə üz tutarkən suallarımıza cavab tapacağımızı düşünmürdük. Amma düşündüyümüz kimi olmadı. İdarəyə yaxınlaşıb, özümüzü təqdim etdikdən sonra bir neçə dəqiqə gözləməli olduq. Gözləməyimizə dəydi və bildirildi ki, İdarənin aparat rəhbəri Riad Qasımovla görüşməyimiz, suallarımıza cavab almağımız mümkündür.






İçərişəhərin qədim və tarixi binalarından birində yerləşən İdarənin koridorları ilə aparat rəhbərinin otağına yollanarkən də elə tarixi bir məkanda olduğunuzu hiss edirsiniz. Bu tarixi bina müasir üslubda dizayn edilib. İdarə otaqlarının pəncərələrindən qalanın gözoxşayan mənzərəsini müşahidə etmək insana xüsusi zövq verir. Qayıdaq mövzuya...

**Yeni dizaynda restoranlar tikiləcək...**

Bizi otağında qarşılayan Riad Qasımovla qısa tanışlıqdan sonra mövzumuz və suallarımız haqda məlumat veririk. Aparat rəhbərinin ilk cavablandırmaq istədiyi sual restoranların söküntüsü ilə bağlı oldu.

Elə ilk cümləsində Riad Qasımov dedi ki, bu söküntülər qala divarlarına heç bir zərər verməyəcək.

**İdarə rəsmisi restoranların sökülməsinin səbəbi barədə danışarkən bildirdi ki, məqsəd həmin obyektlərin daha müasir şəkildə istifadəyə verilməsidir.**

"Bildirim ki, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi yarandığı dövrdən İçərişəhərin qorunması, onun maddi-mənəvi dəyərlərinin mühafizəsi və təbliği üçün çalışır. İdarə tarixi və memarlıq abidələrinin bərpasına və təmirinə xüsusi diqqət ayırır. Həmçinin İçərişəhər ərazisində obyektlərin və restoranların daha müasir üslubda olması da diqqətdə saxlanılır. Söküldüyü deyilən hər iki restoran 10 ilə yaxındır ki, fəaliyyət göstərir. Həmin restoranlar idarənin balansında olduğundan qərara alındı ki, obyektlər daha müasir yüngül konstruksiyalarla əvəz olunsun. Ənənəvi milli üslubda daha müasir ictimai iaşə obyektləri kimi istifadəyə veriləcək. Yeni ənənəvi milli üslub gözlənilməklə yeni dizayn olacaq, yeni obyektlər tikilmir"- deyə Riad Qasımov söylədi.

"Digər obyektlərdə də eyni qaydada işlərin görülməsi nəzərdə tutulubmu" sualına cavabında isə Riad Qasımov bildirdi ki, hazırda Kiçik Qala küçəsində, Qala divarları boyunca yerləşən kafe və restoranların təmiri həyata keçirilir və bu təmir işlərinin heç biri tikinti mahiyyəti kəsb etmir.

**R.Qasımov bu üslubda təmir-bərpa işlərinin Qoşa Qala divarlarına heç bir zərər vurmayacağını, İçərişəhərin və Qala divarlarının görünüşünə xələl gətirməyəcəyini söylədi:** "Burada, sadəcə, şüşə və metaldan gözoxşayan, geniş, işıqlı terrasların qurulması mümkün ola bilər. Və istənilən miqyasda konstruksiya işləri İçərişəhərin ənənəvi memarlıq üslubuna uyğunlaşdırılacaq. Bu işlər də yalnız idarə tərəfindən təsdiqləndikdən sonra həyata keçirilə bilər".

İdarə rəsmisi növbəti sualımıza cavabında dedi ki, bu işlərin görülməsi üçün nəzərdə tutulan vəsait idarə tərəfindən qarşılanır. Riad Qasımov qala ərazisindəki obyektlərin idarənin balansında olduğunu və müəyyən birgə razılaşma müqaviləsi qarşılığında sahibkarların istifadəsinə verildiyini söylədi.

**Tarixi abidələrin yerində müasir kompleks salınırmış...**

Növbəti suallarımız söküləcəyi deyilən iki tarixi abidə - yeraltı hamam və "Bakı Xanlarının evi" ilə bağlı oldu.

***- Riad bəy, biz elə yerindəcə görülən işlərlə tanış olmaq istədik. Amma bildirildi ki, ətraflı məlumatı idarədən almaq mümkündür. Hər iki abidənin söküləcəyi ilə bağlı yayılan məlumat nə dərəcədə doğrudur?***

- Bu məlumatda doğruluq yoxdur. Çünki bu fikirlər tamamilə əsassızdır. Sadəcə, bu cür informasiyalar bir vaxtda yayıldı. Restoranlar sökülən ərəfədə kimlərsə bu iddianı da ortaya atdılar. Sanki İçərişəhərdə söküntü bumu başlayıbmış kimi mənzərə yaradıldı. Siz hər iki tarixi abidədə aparılan işlərlə tanış ola bilərsiniz. Suallarınız bitdikdən sonra əməkdaşlarımız sizi oraya apara bilərlər.

***- Aydındır, restoranlar məsələsini izah etdiniz. Bu iki abidənin taleyi necə olacaq?***

- Tarixi hamam və "Bakı Xanlarının evi" birlikdə böyük tarixi-mədəni bir kompleks olacaq. İçərişəhərin bərpa və konservasiyası üzrə ərazidə aparılan işləri YUNESKO-nun təşkilati dəstəyi ilə beynəlxalq ekspertlər qrupu tərəfindən hazırlanmış "MasterPlan"a əsasən həyata keçirilir. İşlərinin mükəmməl surətdə aparılması, həmçinin xarici təcrübənin öyrənilməsi məqsədilə Almaniyanın "Remmers" və Avstriyanın "Atelier Erich PummerGmbH" şirkətləri ilə sıx əməkdaşlıq edirik.

2016-cı ildə Böyük Qala küçəsi-50 ünvanında aşkar edilən və XVII əsrə məxsus yeraltı hamamın konservasiyası və onun yaxınlığında yerləşən və XVII-XVIII əsrlərə aid edilən "Bakı Xanlarının Evi" kompleksinin bərpası işləri eyni vaxtda aparılır.

"Bakı Xanlarının evi" yaxın zamanda genişmiqyaslı restavrasiya işlərindən sonra muzeyə çevriləcək. Ümumi abadlaşdırma işləri 4500 kvadratmetr sahəni əhatə edir.

2018-ci ilin ortalarından başlanan abadlıq işləri çərçivəsində ilk öncə uzun illər məişət tullantıları ilə çirkləndirilmiş sahə təmizlənib. Daha sonra əraziyə arxeoloji tədqiqat qrupu cəlb olunub, elmi araşdırmalar aparılıb.

Müasir innovativ vasitələrin istifadə olunacağı yeni kompleksə daxil olan binalar yeni yaradılacaq muzeyin əsasını təşkil edəcək. Burada geniş sərgi zalının və səciyyəvi orta əsr nümunələrinin yaradılması planlaşdırılır. Sərgi zalında interaktiv panellər vasitəsilə qonaqlar tarixi və mədəni məlumatlarla tanış ola biləcəklər.

Muzeyin əlamətdar xüsusiyyətlərindən biri Bakı tarixinin bədii film vasitəsilə bütün təfərrüatı ilə canlanması olacaq. Klassik orta əsrlərdə tarix, din, ticarət, mətbəx, məişət həyatı və ictimai həyatın al-əlvan cizgiləri xüsusi otaqlarda tamaşaçılara təqdim olunacaqdır.

Söhbətimizin davamında Riad Qasımov əlavə etdi ki, binaların restavrasiyası zamanı həyətyanı sahə də köklü surətdə abadlaşdırılacaq və İçərişəhər sakinlərin və onun ziyarətçiləri üçün gözəl istirahət guşəsinə çevriləcək.

***- Bütün bu işlərin hansı müddətdə yekunlaşacağı gözlənilir?***

- 2019-cu ilə tarixi kompleks istifadəyə hazır olacaq.

Riad Qasımova son sualımız isə fasilələrlə təmir edilən qala divarları ilə bağlı oldu.

Soruşduq ki, qala divarlarının təmiri nə zaman yekunlaşacaq?

- Qoşa Qala divarları sonuncu dəfə sovet dövründə 1950-ci illərdə vaxtaşırı restavrasiya edilib. Hazırda bu işlərin tədricən yenidən həyata keçirilməsində ehtiyac vardır. Lakin uzunluğu 500 metrdən çox olan yüksək tarixi dəyərə malik abidənin bütünlüklə bərpası qısa müddətdə mümkün deyil və bu məsələ kifayət qədər böyük maliyyə vəsaiti tələb edir. Odur ki, Qoruq İdarəsi bu məsələni daim nəzarətdə saxlayaraq bərpa işlərinin mərhələli şəkildə həyata keçirilməsi istiqamətində səylərini davam etdirir.

Qeyd edək ki, idarədə suallarımıza cavab aldıqdan sonra İçərişəhərdə aşkar edilən sonuncu tarixi abidə olan yeraltı hamamda görülən işlərlə yerində tanış ola bildik. Bu unikal abidə ilə bağlı hazırladığımız videosujeti musavat.com saytında izləmək mümkündür.

❑ İlkin MURADOV,
"Yeni Müsavat"

# Sirr kimi qalan 20 noyabr terroru

## Azərbaycanın dövlət adamlarının içərisində olduğu helikopterin vurulmasından 27 il ötür...

**1991-ci ilin 20 noyabrında Xocavənd rayonunun Qarakənd kəndi üzərində göyərtəsində Azərbaycanın rəsmi şəxslərinin olduğu “Mi-8 N72" helikopterinin erməni silahlı dəstələri tərəfindən vurulmasından 27 il keçdi. Bu terror hadisəsi nəticəsində vertolyotda olan 22 nəfərin hamısı - ölkəmizin görkəmli dövlət xadimləri, jurnalistlər, həmçinin Rusiya-Qazaxıstan sülhməramlı missiyasının üzvləri həlak olub.**

Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan “Mİ-8 N72" helikopteri 1991-ci il noyabrın 20-də saat 14:42 radələrində vurulub.

Hadisə zamanı Azərbaycanın dövlət katibi, akademik Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, daxili işlər naziri Məhəmməd Əsədov, Şuşa rayonunun birinci katibi Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, nazir müavini Qurban Namazəliyev, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, AzTV-nin əməkdaşı Arif Hüseynzadə, videooperator Fəxrəddin Şahbazov, Rusiya-Qazaxıstan sülhməramlı missiyasının üzvləri və ekipaj üzvləri həlak olub (ümumilikdə 22 nəfər).

Erməni separatçıları bu terror aktı ilə özlərinin terrorçu mahiyyətini bir daha sübut etdilər. Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılıb, istintaqın aparılması Respublika Prokurorluğuna verilib. Hazırda isə cinayət işi üzrə istintaq dayandırılıb. Buna səbəb terror aktının baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır.

Kimin təşkilatçı və icraçı olmasından asılı olmayaraq, bu terror aktı dövlətimizə qarşı yönəlmişdi.

Bu dəhşətli faciədən illər keçsə də onunla bağlı müəmmalar, iddialar bitib-tükənmir. Azərbaycan üçün böyük zərbə olan bu hadisənin üzərində bir sirr pərdəsinin olduğu daim müzakirə edilir.

Məsələn, faciə ilə bağlı keçən bu illər ərzində ən sensasion iddialar 1991-ci ilin noyabrında DİN-in Baş Cinayət-Axtarış İdarəsində baş əməliyyat müvəkkili vəzifəsində işləmiş Bayram İsmayılova məxsusdur. Sabiq əməliyyatçı hadisədən dərhal sonra həmin əraziyə yollandıqlarını, ora çatdıqları zaman ilk olaraq rus əsgərlərini gördüklərini bildirərək, meyitlərin bir çoxunun tanınmaz hala düşdüyünü, vertolyotda olan şəxslərin sayından cəsədlərin sayının az olduğunu qeyd edib.

Vertolyot vurulan dövrdə Azərbaycanın prezidenti olan Ayaz Mütəllibov isə dəfələrlə bildirib ki, bu terror onun komandasına və ona qarşı həyata keçirilən qanlı hadisə idi.

**1992-1993-cü illərdə daxili işlər naziri işləmiş İsgəndər Həmidov isə bildirib ki, bu hadisə Ayaz Mütəllibov hakimiyyətinə qarşı deyil, Azərbaycanın gələcəkdə müstəqillik proseslərinin ləngidilməsinə, yaxud dayandırılmasına yönəlik bir hadisə idi:** “Biz o vaxt Qarakənd faciəsinin istintaqını apardıq. Tapılan sümüklər 10-15 nəfərə məxsus idi. Ona görə də həmin faciə bu gün də Azərbaycanda qaranlıq bir səhifədir. O vaxt nə ermənilərdə, nə də azərbaycanlılarda hava qurğusunu vuran raketlər yox idi. O vaxt dedilər ki, guya avtomat, pulemyotla vertolyot vurulub. Amma vertolyot göydə parçalanmışdı, yerə dəyəndə parça-parça olmamışdı. Tofiq İsmayılov və digərlərinin müqavimət göstərməsinə inanmıram. Çünki hadisə vaxtı uzaqda çoban olub, qoyun otarırmış. O, göydə vertolyotun parçalanıb yerə düşdüyünün şahidi olub. Parçalanan vertolyotda sağ adam qala bilməzdi. Yəqin ki, bu, rusların əməli idi. Onların növbəti siyasəti idi ki, SSRİ-ni saxlasınlar. Bu bir fərziyyədir, yüz faiz demək mümkün deyil. Kifayət qədər iş gördük, istintaq materialları ilə mən də tanışam. Zaman açığı yetişmədi ki, hadisənin üstü tam açılsın. O vaxt şayiələr gəzirdi ki, Əsədov və başqaları sağdır. İsmət Qayıbovun həlak olmasını biz bildik, qol tapılmışdı, İsmətin saatı qolunda idi. O vaxt vertolyot elə günə düşmüşdü ki, kiminsə meyitini ayırd etmək çox çətin idi. Çox adam şahid olduğunu deyə bilər. Hələ də məndə şübhələr qalır. Deyirlər ki, kəmərə görə Məhəmməd Əsədovun meyiti müəyyən edilib. Amma meyit yox idi, hamısı parçalanmış ət, sümük parçaları idi. Buna görə də insanı tanımaq çox çətindir. Moskvaya aparılan vertolyotun qara qutusu Azərbaycanın bəzi siyasi xadimlərinin, oyunbazların vicdanlarında qara ləkədir. Qəza baş verən vaxt komandir bir anlıq izahat verir ki, nədən qəzaya gedirlər, bax bunlar həmin qara qutudadır. Qara qutunun Moskvaya aparılması bu cinayətin üstünün açılmasının qarşısını almaq üçün idi”.



**Qarakənd faciəsinin 27-ci ildönümündə həmin faciədə həlak olanlardan Məhəmməd Əsədovun xanımı Məleykə Əsədova moderator.az-a danışıb. O bildirib ki, Qarakənd faciəsi təkcə orada həyatını itirənlərin ailəsinə, övladlarına, əzizlərinə yox, bütövlükdə Azərbaycan xalqına, Azərbaycan ziyalılarına zərbə vurdu. Məleykə xanım qeyd edib ki, hadisənin üzərindən 27 il keçməsinə baxmayaraq, o, hələ də Məhəmməd Əsədovun yoxluğunu qəbul etməyib:** “Mən hələ də Məhəmməd Əsədovun etibarlı ömür-gün yoldaşı, ən yaxın dostu, övladlarının anasıyam. O, daima mənimlədir, bizimlədir, övladlarıyladır, nəvələriylədir, evimizdədir. 27 il yox, bir bu qədər də vaxt keçsə, mən əsla onun yoxluğuna inanmayacağam. Xalqı üçün yaşayanlar heç vaxt ölmürlər. General Məhəmməd Əsədov da belə şəxsiyyətlərdəndir”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Azərbaycana sərt qış gəlir

## Noyabrın 21-i axşam şimal və qərb rayonlarından başlayaraq noyabrın 25-dək hava şəraiti qeyri-sabit keçəcək, sulu qar, qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi hava şəraiti ilə bağlı xəbərdarlıq edib. Nazirliyin Milli Hidrometeorologiya Departamentindən müsavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında noyabrın 21-i gün ərzində Bakıda və Abşeron yarımadasında arabir güclənən şimal-qərb küləyi əsəcək.**



Azərbaycanın rayonlarında noyabrın 21-i axşam şimal və qərb rayonlarından başlayaraq noyabrın 25-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə yağışın intensiv olacağı, dağlıq rayonlarda sulu qar, qar yağacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-6 dərəcə aşağı enəcək.

Çaylarda sululuğun artacağı, xüsusən Lənkəran-Astara zonasının bəzi çaylarından qısamüddətli daşqın keçəcəyi ehtimal olunur.

**Artıq indidən müvafiq qurumlar Azərbaycanda sərt qışa hazırlaşmalıdırlar. Bunu isə oxu.az-a Ekoloji Proqnozlar Mərkəzinin prezidenti, ekoloq Telman Zeynalov deyib.**

**Onun sözlərinə görə, bundan sonra qış gözlənildiyindən tez gəlib, gec gedəcək.**

“Günəş qeyri-adi və ləng yuxu dövrünə girir. Yeni günəş minimumu yeni kiçik buz dövrünün başlanmasına səbəb ola bilər. Bəşəriyyət XVII əsrdə belə qışla üzləşib”, - deyə ekoloq bildirib.

Telman Zeynalov qeyd edib ki, son illər Günəş ləkələrinin sayında azalma müşahidə olunur (Günəş ləkələri maqnit enerjisi ehtiyatlarını xarakterizə edir, daha dəqiq desək, Günəş ləkələri Günəşdəki partlayışların enerjiyə çevrilməsi nəticəsində yaranmış ehtiyatlardır).

“Günəş tacının qütblərində tüğyan edən qasırğalar zəifləyir, Günəşdəki reaktiv axıntılar yoxa çıxır. Bu onu göstərir ki, Günəşin daha az aktivlik dövrü başlayır. Bütün bunlar bu qışdan etibarən özünü göstərməyə başlayacaq”, - deyə ekspert bildirib.

**Ekoloq Azərbaycan paytaxtında gözlənilən qış barəsində belə proqnoz verib:** “110 illik meteoroloji müşahidələr onu göstərir ki, Bakıda qışda ən aşağı temperatur 1969-cu ildə qeydə alınıb - 10 dərəcə şaxta. Düzdür, 2012-ci ildə Bakıda 11 dərəcə şaxta olması barədə məlumatlar var, lakin rəsmi versiyaya görə, rekord göstərici 1969-cu ilə aiddir. Bu il isə 8-9 dərəcə şaxta gözlənilir. 2020-ci ildə Bakıda soyuq temperatur üzrə yeni rekord qeydə alınacaq”.

Qeyd edək ki, ötən qış Rusiyadan gələn Harmut Arktika siklonu Avropada yeni temperatur rekordlarının qeydə alınmasına səbəb olmuşdu.

Qeyd edək ki, qanunvericiliyə görə, noyabrın 15-dən respublika ərazisində qış rejiminə keçid elan olunur. Bununla əlaqədar əhaliyə kommunal xidmət göstərən dövlət qurumlarının da fəaliyyəti gücləndirilir, mənzillərə istilik verilməsinə başlanılır. Soyuqlar daha öncədən başladığı üçün vətəndaşlar da bu günü səbirsizliklə gözləyirlər. Belə ki, qış rejiminə keçidlə əlaqədar təbii qazın həcmi artır və təzyiq güclənir. Həmçinin istiliyin verilməsinə başlanılır.

Havaların soyuqlaşması Azərbaycanda ən çox qaz təchizatı ilə bağlı məsələni aktuallaşdırıb. Artıq bir neçə gündür sosial şəbəkələrdə qazın təzyiqinin aşağı olması ilə bağlı müzakirələr başlanıb. Müzakirələrdən aydın olur ki, Sumqayıt və Xırdalan şəhərləri, Sumqayıt və Bakı ətrafındakı yaşayış məntəqələrindən narazılıq daha çoxdur. İnsanlar qazın təzyiqinin artırılması üçün qış rejiminə keçidin gözləndiyini, buna görə evlərdə qazın zəif yandığını bildirirlər.

❑ **“YM”**

# Müşfiqi diri-diri Mircəfər Bağırovun yaşadığı evin divarına hörüblər-sensasion açıqlama

## General Tomsonun, Nəriman Nərimanovun və Mircəfər Bağırovun yaşadığı tarixi bina hansı sirləri gizlədir?

**“Şair Mikayıl Müşfiqə aid olduğu iddia edilən sümük qalıqlarının ona aid olub-olmadığını müəyyən etmək üçün şairin ata nəslindən olan kişi cinsli yaxın qohumlarından da müayinələrin götürülməsi lazımdır. Artıq istintaq orqanları tərəfindən həmin şəxslər müəyyənləşdirilib və onlar müayinələrin götürülməsi üçün bizə təqdim edilib”**





Bunu bir neçə gün əvvəl Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov mediaya açıqlamasında deyib. Onun sözlərinə görə, müayinələrin aparılması üçün onlara bir deyil, çox sayda sümük qalıqları təqdim edilib. Sümük qalıqları üzərində məhkəmə-kriminalistik, məhkəmə-tibbi, molekulyar-genetik və s. ekspertizalar həyata keçiriləcək: “Artıq bu müayinələrin hamısına başlanılıb. Sümük qalıqları bir neçə şəxsə aiddir. Onların hələlik kimlərə aid olduğu bilinmir. DNT analizi apardıqdan sonra sümük qalıqlarının müayinələrinin nəticələri Müşfiqin qohumlarının müayinələrinin nəticələri ilə tutuşdurulacaq və müəyyən ediləcək ki, bizə təqdim edilən sümüklər arasında Mikayıl Müşfiqə aid sümük qalıqları var, ya yoxdur”. Bu arada isə tədqiqatçı alim Ədalət Tahirzadə Mikayıl Müşfiqin divarına diri-diri hörüldüyü iddia olunan binanın ünvanını göstərib.

Həmin ünvan Azərbaycanın o zamankı rəhbəri Mircəfər Bağırovun yaşadığı, indi isə İncəsənət Muzeyi yerləşən binadır. Müşfiqin həmin binanın zirzəmisinin aşağıdan 3-cü mərtəbəsində divara hörüldüyü deyilir.

**Bununla bağlı Ə.Tahirzadə facebook səhifəsində yazıb:** “Mən 31 oktyabrda facebook səhifəmdə yazmışdım ki, ciddi bir dövlət qulluqçusundan Mikayıl Müşfiqin bir binanın zirzəmisində diri-diri divara hörüldüyünü eşitmişəm və qoy dövlət orqanları bunu araşdırsın. Mən bu məlumatı çox ciddi bir dövlət işçisindən 2003-cü ilin aprelində onun kabinetində eşitmişəm. Həmin şəxs Müşfiqin repressiyadan sonrakı həyatını öyrənməyə Azərbaycanda, məncə, ən çox əmək sərf etmiş adamdır. O, sənədlərdə Müşfiqin pəncərəni örtdürməsindən sonra müfəttişin yazdığı raportu və Stalinin büstünün başını şilələdikdən sonra “Azərnəşr” işçisinin yazdığı raportu şəxsən oxuduğunu deyib. Əlavə etmişdi ki, Müşfiqin meyitinin boynuna tros keçirilib ayağına daş bağlanaraq Nargin adası yaxınlığında dənizə atıldığını düşünürdüm, çünki o, Stalinin büstünün boynuna tros keçiriləcəyini demişdi. Buna görə də mən gəmi kirayələdim, dalğıclar tutdum, Müşfiqin meyitinin dənizə atılmasında iştirak etdiyi söylənilən bir tatarı və sonralar Üzeyir bəyin ev muzeyinin direktoru olmuş Ramazan Xəlilovu da özümlə götürdüm. Dalğıclar bir neçə dəfə dənizin dibinə ensələr də nəticəsiz oldu. Əliboş geri qayıdarkən yolda tatar mənə dedi ki, Müşfiqi lazımi yerdə axtarmırsan. O, mənə dedi ki, bildiyimə görə, Müşfiqi şəhərdə məşhur bir binanın zirzəmisinin aşağıdan 3-cü qatında divara diri-diri hörüblər. Bu əhvalatı mənə söyləyən dövlət işçisi 2003-ün aprelində bildirmişdi ki, mən tatarın dediyi həmin binanın zirzəmisinin o qatında oldum. Çox havasız və kəsif iyli bir yer idi. Ancaq divarda axtarış aparmağa mənim səlahiyyətim çatmırdı, buna görə də işim yarımçıq qaldı..."

**Ə.Tahirzadə qeyd edir ki, Müşfiqin divara diri-diri hörülməsi versiyasının doğru olduğu iddiasında deyil:** “Bunun gerçək olmamasını ürəkdən arzulayıram, ancaq deyilənin doğru olmaq ehtimalı da var axı. Qoy dövlət orqanları heç bir hay-küyə imkan vermədən bunu yoxlayıb fikir bildirsin. Mənim istədiyim yalnız budur”.

Qeyd edək ki, Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyi ən böyük incəsənət muzeyidir və muzeydə 17 mindən çox eksponat saxlanılır. 1936-cı ildə əsası qoyulmuş muzey 1943-cü ildən realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri Rüstəm Mustafayevin adını daşıyır.

Bakıda XIX əsrdə inşa edilmiş iki yanaşı tarixi binada - “De Burun Sarayı” və “Mariinski Qadın Gimnaziyası” binasında yerləşir. De Burun sarayı - XIX əsrdə Bakının neft milyonçularından biri olan Lev de Bur tərəfindən inşa etdirilmiş saraydır. Niyazi küçəsində (keçmiş Sadovaya) yerləşən saray 1881-1895-ci illərdə memar Nikolay fon der Nonnenin layihəsi əsasında inşa edilib. Binanın inşası tamamlanmamış De Bur dünyasını dəyişir. Onun varisləri hələ yalnız özülü qoyulmuş binanı 16.000 rubla “Kaspi Tərəfdaşlığı” Səhmdar Cəmiyyətinə satırlar. Beləcə, bina cəmiyyətin mülkiyyətinə keçir. Buna görə də memarlar binanın ilkin planında bəzi dəyişikliklər etməli olurlar. 1917-ci il Oktyabr inqilabından sonra əvvəl ingilis konsulu, 1919-cu ilin avqustunda Böyük Britaniya ordusu Bakıya daxil olandan sonra, General Vilyam Tomsonun başçılıq etdiyi ingilis komandanlığının qərargahı “Kaspi Tərəfdaşlığı”na məxsus olan bu sarayda yerləşdirilib. 28 aprel sovet işğalından sonra isə Nəriman Nərimanovun rəhbərlik etdiyi Xalq Komissarları Şurası da De Burun sarayında yerləşdirilib. Sarayın ikinci mərtəbəsində isə Nəriman Nərimanovun ailəsi yaşayıb. 1933-cü ildə sarayda DTK-nın birinci katibi Mircəfər Bağırov və ailəsi məskunlaşıb. Mircəfər Bağırov 1951-ci ildə onu Azərbaycan Milli İncəsənət Muzeyinə bağışlayıb.

❑ **ORXAN,**
**“Yeni Müsavat”**

# Xarici ölkə səfirliklərimizlə bağlı ilginc iddialar-yoxlamalar başlayıb

## Elxan Şahinoğlu: “Azərbaycanın imicinə kölgə gətirənlər məhz beləleridir”

**Azərbaycanın xarici ölkələrdəki səfirliklərində ən yüksək səviyyədə yoxlamaların başlandığı barədə xəbərlər yayılıb. Bu yoxlamalara rəvac verən iki səbəb göstərilir. Bunlardan biri Ukraynada indiki səfirimiz Anar Xudiyev və keçmiş səfir Tələt Əliyev arasında yaşanan qalmaqaldır. Digəri isə ötən həftə ölkə prezidenti tərəfindən vəzifəsindən qovulan Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmovun İspaniyada səfir işləyən oğlu Anar Məhərrəmovun səlahiyyət hədlərini aşaraq çaxır alveri ilə məşğul olması faktlarının üzə çıxmasıdır.**




Əslində belə bir yoxlamaların olacağı gözlənilən idi. Çünki Ukraynada iki səfirimiz arasında qarşıdurma yaşandığı zaman Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı ölkənin Baş Prokurorluğuna müraciət etmişdi. Bu müraciətin nəticələri barədə hələ ki bir rəsmi məlumat yoxdur.

Ölkəmizin xarici siyasət dairəsinin hərəkətə keçməsinin XİN rəhbəri Elmar Məmmədyarov üçün nə ilə nəticələnəcəyi barədə müxtəlif mülahizələr səsləndirilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Azərbaycanın imicinə kölgə gətirən bir sıra səbəbləri açıqladı:** “Hər bir dövlətdə Xarici İşlər Nazirliyi əsas dövlət institutlarından biri sayılır. Ona görə də bu strukturun hansı vəziyyətdə olması bir çox məsələlərin həllidir. Azərbaycan diplomatları arasında işini bilən peşəkarlar var, öz gücünə və biliyi hesabına nazirlikdə yüksək postlara qədər irəliləyiblər, hətta bunların içərisində səfirlərə də rast gəlinir. Ancaq XİN-də təsadüfi adamlar da az deyil, tanışlıqla, kiminsə oğlu, yeznəsi və ya yaxın qohumu olduğu üçün səfir təyin olunublar və Azərbaycanın imicinə kölgə gətirənlər məhz beləleridir. Biz əvvəllər də səfirliklərimizdən, yumşaq desək, qəribə xəbərlər alırdıq. İndi isə bunun sayı xeyli artıb və hələ ki tədbir görülmür”.

Politoloq onu da bildirdi ki, XİN-in informasiya işi də qənaətbəxş deyil. Doğrudur, XİN-in mətbuat xidmətlərinin rəhbərləri öndə olanlardır. Ancaq əgər yüksək səviyyədə hansısa bir məsələ ilə bağlı müzakirə aparılıb qərar verilməyibsə, həmin mətbuat katibi ancaq eyni sözləri təkrarlayacaq. Məsələn, jurnalistlərdən biri azad olunan Bakı Dövlət Universitetinin sabiq rektoru Abel Məhərrəmovun şərab biznesi ilə məşğul olan səfir oğlu Anar Məhərrəmovla bağlı araşdırma aparılıb-aparılmadığı barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Leyla Abdullayevaya sual ünvanlayıb. Leyla Abdullayeva suala qısa şəkildə belə cavab verib: “Mən bu sualı cavablandıra bilmirəm”. Bu cavab vəziyyəti daha da qəlizləşdirir. Yenə desəydi, “bu haqda yeni məlumat yoxdur” anlamaq olardı. XİN mətbuat katibinin dolaşıq cavabından hansı nəticə çıxır? Birincisi, görünür, bu sualı hələ nazir Elmar Məmmədyarov da cavablandıra bilmədiyindən mətbuat katibi da bilmir suala necə cavab versin. XİN-in konkret suala cavabdan qeyri-peşəkar şəkildə yayınması nazir Elmar Məmmədyarovun mövzu ilə bağlı mövqeyinin hələ müəyyənləşməməsindən xəbər verir. Məmmədyarovun hansısa qərarı olmalıdır ki, mətbuat katibi bu haqda məlumat verə bilsin. Səfirləri prezident təyin etsə də, təqdimatı xarici işlər naziri verir. Abel Məhərrəmovun oğlunun İspaniyaya səfir təyinatı da nazir təqdimatı əsasında baş verib. İndi isə nazir təyin etdiyi səfir barədə heç nə deyə bilmir. Görünür, yuxarıdan təlimat gözləyir. Ancaq bunun üçün nə təlimat lazımdır ki? Ortada şərab biznesi ilə bağlı ciddi ittihamlar və ya iddialar var. Bu ittihamlara görə bir nəfər artıq işdən kənarlaşdırılıb. Məntiqlə məsələni araşdırmaq üçün XİN-də komissiya yaradılmalıdır. Bəlkə də yaradılıb, ancaq ictimaiyyətdən hələ gizlədirlər. Elə bu səbəbdən də mətbuat katibi sual qarşısında aciz qalıb. Eyni sözləri Ukraynada indiki və keçmiş səfir arasındakı qovğa haqqında da demək olar. Bəzi səfirlərimiz tacirlərə çevriliblər, ölkəsinin maraqlarından çox şəxsi ciblərini düşünürlər, çalışdıqları ölkədə biznes qururlar. Abel Məhərrəmovun İspaniyadakı səfir oğlunun şərab biznesi ilə məşğul olduğuna dair xəbərlər illərdir mətbuatda yazılır, müzakirə olunur. Axı Elmar Məmmədyarov bunu haradansa eşitməli idi. Eşitmişdisə, niyə tədbir görmürdü? Yəni nazir prezidentə hesabat verə bilərdi ki, səfir ona aid olmayan işlərlə məşğuldur və bələsinin geri çağırılması məqbuldur. Belçika səfirliyimizdə yüksək rütbəli diplomatımızı tanıyırdım, XİN-dəki atasına güvənərək Brüsseldə restoran açmışdı. Və ya Azərbaycanın Ukraynadakı səfirliyində indiki və keçmiş səfirlər arasındakı qalmaqalın da predmeti biznesdir, səfir xələfinin restoranını əlindən almaq istəyir. Bu cür iş prinsipi olan səfirliklərimiz və səfirlərimizləmi xarici ölkələrdə milli və təhlükəsizlik maraqlarımızı qoruyacağıq, Ermənistanın işğalçı mahiyyətini anlatmağa çalışacağıq? Axı onlar da bir qisim səfirliyimizin və səfirimizin nə işlə məşğul olduğunu bilir".

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 248 (7137) 21 noyabr 2018



# Ölkəmizi tanıyaq

Zamin HACI
zaminhaci@gmail.com

“Bu povestdə təsvir olunmuş hadisənin çox uzaq bir keçmişə aid olduğunu əvvəlcədən xəbər verməyi özümə borc bilirəm. Həm də bu əhvalat tamamilə uydurmadır”

**(Nikolay Qoqol, “İvan İvanoviçin İvan Nikiforoviçlə dalaşması haqqında povest”dən)**

**Bir qrup şagird və müəllim “Ölkəmizi tanıyaq” projesi çərçivəsində Qəbələdə hoteldə yemək yeyib Şəkiyə gedərkən zəhərlənmə diaqnozu ilə xəstəxanaya aparılıblar. Xoşbəxtlikdən hamı salamatdır (əlbəttə, bu bir tavtologiyadır - xoşbəxtlikdən xəsarət almaq mümkün deyil; hərçənd, nə biləsən, adam var quymaq yeyəndə dişi sınır, rektor vardı çaxır çəlləyində boğuldu), uşaqları evə buraxıblar. Məncə, onlar üçün bu proje artıq başa çatmışdır - ölkəmizi sözün əsl mənasında tanıdılar.**

Elə Biləcəridə Füzuli küçəsində kanalizasiya xəttindən dana kəllələri çıxaran fəhlələr də ölkəmizi artıq yaxından tanıyırlar. Yoxsa kimin ağlına gələrdi inəyi kəsib kəlləsini kanalizasiyaya atasan. Yeraltı sərvətlərimiz sırasına dana başları da əlavə olundu. Rayonun keçmiş icra başçısı Xaləddin müəllim “Təmiz Binəqədi” projesi elan edərkən yəqin bunu nəzərdə tuturmuş. Əlinə keçəni bas kanalizasiyaya, təki üstdə təmiz görünsün. Sonra nə olar olar. Harada qırılsa - el dilində desək.

Sözgəlişi, rəhmətlik şairin adının Biləcəridə küçəyə qoyulması təsadüfi deyildir, çünki Məhəmməd Füzuli mədəniyyətimizin Biləcəri sınırını aşmış sənətkarlarımızdan biridir. Şair uzaqgörənliklə bu kanalizasiya problemini də qələmə almışdır. Gəlin oxuyaq: “Mən eşq gazərgəhində xakəm, Elcümlə bilir məni ki, pakəm!” Yəni şair burada demək istəyir ki, Biləcəri (gazərgəh) eşq bağçasıdır, mənim adıma orada torpaq var və həmin torpağın (xak) sənədləri yerindədir (pak), vaxtında Xaləddin müəllimin adamlarına (elcümlə) haqqını ödəmişəm, narahat olmayın. Bələdiyyədən çıxarışı da vardır. Kanalizasiyanı isə zəhmət çəksin Anar Cəbrayıllı (ki) açsın.

Tema açılmışkən, böyük şairimiz şərab, saqi, badə söhbətlərini vaxtında yüksək dəqiqliklə, uzaqgörənliklə açıqlamışdır. Bəlkə də Fazil müəllim oxusa az içərdi, xəstələnməzdi, indi yenə vergilər naziri işləyib uca millətimizə xidmət göstərərdi. Misal üçün, görün şair nazirin dilindən nə deyir: “Saqi, mədəd et ki, dərdməndəm! Qəm silsiləsinə paybəndəm”. Bu şeiri sözbəsöz təhlil edərdim, ancaq oxucular özü başa düşsələr bəsdir. Bircə onu qeyd edim ki, burada “mədəd et” yardım elə mənasını verir. Füzulinin “Bəngü Badə” adlı poeması isə bu temanı kökündən açır, onun açması Opium və Badə deməkdir. “Gecə qatılaşır, yüzillik şərab kimi” - bunu isə ispan şairi Federiko Qarsia Lorka yazıbdır. Bizim Abel müəllimin Madriddəki vəziyyətini əks etdiribdir.

Poeziyaya çox aludə olduq, mövzu yadımızdan çıxdı. Heç indi bilmirəm nədən yazacaqdım. Bəlkə YAP-çı keçmiş deputat Əli müəllimə nazirliklərin qapısında salam verilmədiyindən? Şair demişkən, salam verdim, rüşvət deyil... Lənət şeytana. Bu şeiriyyat bizdən əl çəkmir. Görünür, həyatımızın gözəlləşməsi, poetikləşməsi ilə bağlıdır. Ancaq Əli müəllimə demək istəyirəm qəm çəkməsin, YAP-ı yaradanların bir çoxunun taleyinə baxanda o, hələ yaxşı qurtarıbdır. Əli İnsanov türmədə adam döyür e. Rəsul müəllim uzun sürən xəstəlikdən sonra vətənə qayıtmaq istəyir (o vaxt onu azarladığı üçün spikerlikdən çıxartmışdılar). Yox, açığı, bu mövzular nə məni, nə hörmətli oxucularımızı cəlb etmir. Bəs nədən yazmalıydım? Bəlkə Faiq Ağayevin deputat olmaq arzusundan? Ya Mətbuat Şurası sədri Əflatun müəllimin Saatlı zəhmətkeşləri ilə futbol oynayıb UEFA liqasında iştirak xəyalından? Bilmirəm. Məncə, bunlar da deyildi.

İndi söz əlaqədar təşkilatlarındır - babat temalar verin, yazaq.

---



# ABŞ Azərbaycana yardımı əngəlləyən 907-ci düzəlişi ləğv edə bilər

**Tanınmış politoloq:** “Amerika siyasətinin Cənubi Qafqazda həyata keçirilməsinə 907-ci düzəliş ciddi əngəllər yaratmaqda davam edir”

**ABŞ prezidenti Donald Tramp Amerikanın Azərbaycana birbaşa dövlət yardımını yasaqlayan 907-ci düzəlişin fəaliyyətini dayandıra bilər. ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun oktyabrın sonlarında Azərbaycan səfərindən sonra bu istiqamətdə çalışacağı gözlənilirdi. Məlumatlara görə, Bolton ölkəsinə geri döndükdən sonra Bakıda verdiyi vədin yerinə yetirilməsi üçün addımlar atılır.**

**Qeyd edək ki, C.Bolton Bakıda səfərdə olan zaman ABŞ prezidenti Donald Trampın Amerikanın Azərbaycana birbaşa dövlət yardımını yasaqlayan 907-ci düzəlişin fəaliyyətini dayandıra biləcəyini demişdi:** “Tramp Amerikanın Azərbaycana birbaşa dövlət yardımını yasaqlayan ”Azadlığa dəstək" aktına 907-ci düzəlişin fəaliyyətinin dayandırılması üçün öz səlahiyyətlərindən istifadə edə bilər. Bu müddəa Konqres tərəfindən təsdiq edilib. Hakimiyyətin icra qolunun eyni siyasi xəttə riayət etməsi mütləq deyil və bizim konstitusiyaya əsasən, əslində xarici siyasəti müəyyən edən məhz prezidentdir. Bir çox hallarda, müxtəlif prezidentlər satınalma aparmaq üçün bu müddəanın fəaliyyətini dayandırıblar və biz bunun zəruri olub-olmadığını müəyyən etmək üçün daim bu fürsəti nəzərdən keçiririk. ABŞ Azərbaycanı regionda özü üçün strateji baxımdan son dərəcə vacib ölkə hesab edir".

Xatırladaq ki, 907-ci düzəliş 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən “Azadlığa Dəstək” Aktına qəbul edilən və Azərbaycana Amerikanın birbaşa dövlət yardımını yasaqlayan düzəlişdir.

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a bildirdi ki, 907-ci düzəliş ABŞ üçün səmərəsiz və lüzumsuz bir sənədə çevrilib. Hətta Amerika siyasətinin Cənubi Qafqazda həyata keçirilməsinə 907-ci düzəliş ciddi əngəllər yaratmaqda davam edir:** “Amma ABŞ qanunvericiliyinə görə, prezident istədiyi həmin düzəlişə əhəmiyyət vermədən Azərbaycana yardım haqqında qərar verə bilər. Yəni hətta o düzəliş qüvvəsində olsa da prezident müəyyən anlarda Amerikanın maraqlarını nəzərdə tutaraq, 907-ci düzəlişdən yan keçərək yardımı bərpa edə bilər. Con Bolton həm də buna işarə etmişdi ki, əgər Konqres 907-ci düzəlişi ləğv etməsə, Tramp öz hüquqlarından istifadə edərək Azərbaycana yardım göstərilməsinə şərait yaradacaq. Boltonun səfərindən sonra ABŞ-ın Azərbaycana və Ermənistana silah satmaq istədiyi barədə informasiyalar gündəmə gəldi. Bu təsadüfən ortaya çıxan məsələ deyildi. ABŞ bəyan etdi ki, Azərbaycana silah sata bilər. Bu isə faktiki olaraq 907-ci düzəlişin qüvvəsini itirməsi demək olacaq. Düzdür, bu məsələ hələ tam şəkildə ABŞ-ın rəsmi gündəminə oturmayıb. Amma bu fikrin nüfuzlu qəzetlər vasitəsilə ictimai rəyə çatdırılması onu göstərir ki, ABŞ-ın siyasi elitasında sözügedən məsələ aktuallaşır. Bu addımı atmaq üçün fürsət axtarırlar. Con Boltonun bu işə dəstək verməsi isə prosesin sonda müsbət həllini tapacağı ehtimalını bir az da gücləndirir. Con Boltonun Cənubi Qafqaz ölkələrinə səfərinin yekunları ilə bağlı twitter hesabında müsbət fikirlər yazması da göstərir ki, Amerika rəsmisi Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verir. Bu baxımdan Trampın müşaviri keçirdiyi mətbuat konfranslarında, müsahibələrində Azərbaycanla əlaqələrin ABŞ üçün yüksək prioritet təşkil etdiyini vurğulamışdı. O, Azərbaycanı ABŞ-ın bölgədə əsas tərəfdaşı adlandırıb. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, terrorizmə qarşı mübarizədə, regional sülhün qorunmasında, siyasi, iqtisadi əməkdaşlıq sahəsində əhəmiyyətli ölkə kimi xarakterizə edib. Dəfələrlə vurğulayıb ki, Azərbaycan regionda sülhə, regional əməkdaşlığa və təhlükəsizliyə töhfə verən ölkədir. Məlum səbəblərə görə Ermənistan istisna olmaqla, Azərbaycanın region ölkələri ilə işgüzar dostluq münasibətləri var və ABŞ Azərbaycanın bu siyasətini anlayışla qəbul edir.

Boltonun toxunduğu ən mühüm məsələ isə Azərbaycana silah satışının da əngəlləyən 907-ci düzəliş məhdudiyyətinin ləğv edilməsi ilə bağlı səsləndirdiyi fikirlər idi. Belə güman etmək olar ki, Bolton sözügedən bədnam düzəlişin qüvvədən düşməsi üçün öz imkanlarından istifadə edə bilər. Prezident Donald Tramp Azərbaycana qarşı 907-ci düzəlişi aradan qaldırarsa, bu birbaşa Vaşinqtonun dövlət yardımının alınmasına gətirib çıxara bilər. Con Boltonun 907-ci düzəlişi və silah ticarətini açıq şəkildə qabartması eyni zamanda Vaşinqtonun Cənubi Qafqazda Rusiyanın mövqeyini zəifləmaya hesablanıb".

**Q.Hüseynli onu da dedi ki, bu günlərdə Amerikanın nüfuzlu generallarından biri açıq şəkildə Azərbaycana mütləq yardım göstərməyin lazım olduğunu bəyan edib:** “General fikrini belə əsaslandırdı ki, Azərbaycan Rusiyanın təzyiqi altındadır. ABŞ-ın siyasi dairələri bunu yaxşı başa düşür və güman edirəm ki, 907-ci düzəliş heç də uzaq olmayan vaxtda aradan qaldırılacaq. Bu isə ABŞ-Azərbaycan münasibətlərində yeni bir dövrün başlamasına gətirib çıxaracaq.

Hazırda ABŞ böyük silah ticari sövdələşmələrinə gedir. Görünür, Tramp administrasiyası Azərbaycanla da silah sövdəşləməsinə getmək niyyətindədir. Bir tərəfdən Amerika qazanc əldə etmək, digər tərəfdən də Rusiyanın silah bazarını əlindən almaqla, regionda güclənmək istəyir".

**Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyana ABŞ-ın viza verməsinin Azərbaycan-ABŞ münasibətlərinə təsiri məsələsinə gəlincə, politoloq bildirdi ki, böyük ehtimalla Saakyan Vaşinqtona, o cümlədən Parisə Ermənistan diplomatik pasportu ilə gedib. Hər bir halda separatçı rejimin rəhbərinin bu ölkələrdə qəbul edilməsinin özü Azərbaycanın lehinə deyil:** “Bu hadisə haqlı olaraq Azərbaycanda ciddi narazılıqla qarşılanır. Bu səfər hansı məqsədə xidmət edir-etsin qondarma rejimin başçısının hər iki ölkəyə səfərinə şərait yaradılması diplomatik etiket normalarına sığmır. Azərbaycanın ərazi bütövlüyünü tanıyan ölkələrin ikili standartlarla davranmasına bir sübutdur. Amma bu hadisə o demək deyil ki, ABŞ-la Azərbaycanın münasibətləri korlanıb".

❑ Etibar SEYİDAĞA,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 248 (7137) 21 noyabr 2018




# Paşinyan Kremlə meydan oxudu: "Bizimlə hamı hesablaşacaq!.."

## İrəvanın davakar və riskli ritorikasının arxasındakı səbəblər; erməni baş nazir əvəzi seçkiöncəsi "va-bank" gedir...

**Azərbaycan prezidenti İlham Əliyevin Belarusa son uğurlu səfəri işğalçı Ermənistana növbəti "tərs şillə" kimi dəyib. Ən azı 3 səbəbdən.**

Birincisi, səfər zamanı xeyli sənəd imzalanıb ki, həmin yeni anlaşmalar da iki ölkə münasibətlərini daha yüksək səviyyəyə qaldıracaq. İkincisi, Belarus Azərbaycana növbəti partiya keyfiyyətli silahlar verəcək. Bakıda həmçinin birgə hərbi müəssisələrin açılması istisna edilmir. Üçüncüsü isə prezidentlər səviyyəsində qəbul edilən birgə bəyannamədə Minskin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstəyi bir daha, birmənalı şəkildə öz əksini tapıb, konfliktin ilk növbədə ölkələrin ərazi bütövlüyü, bərabərliyi və BMT sənədləri əsasında həlli vacibliyi vurğulanıb.

Göründüyü kimi, Ermənistanın köklü maraqlarına, o cümlədən Dağlıq Qarabağ məsələsində yürütdüyü destruktiv siyasətə diametral zidd bir davranışdır. Belarus isə Ermənistanın Avrasiya İqtisadi Birliyi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT - "Rus NATO-su") üzrə müttəfiqi sayılır. Məhz sayılır. Gerçəkdə isə o, Azərbaycanla qat-qat isti və güclü əlaqələrə malikdir, nəinki Ermənistanla.

*****

Gözlənildiyi kimi, prezident İlham Əliyevin budəfəki səfəri də işğalçı ölkədə əsl isterika doğurub. Siyasilərdən tutmuş, ekspert dairələrinə kimi az qala, hamı prezident Aleksandr Lukaşenkonu asıb-kəsir. Yeri gəlmişkən, bənzər isterika Azərbaycana təxribatçı təbliğat aparan yəhudi blogger Aleksandr Lapşin Belarusdan Azərbaycana ekstradisiya ediləndə və 2016-cı ilin "4 günlük" aprel savaşı zamanı yaşamışdı. Bəllidir ki, Lapşin məsələsində konkret olaraq, Lukaşenkonun prinsipiallığı həlledici rol oynamış, habelə "4 günlük müharibə" zamanı Belarus Azərbaycanın mövqeyini dəstəkləmişdi (səfir buna görə Ermənistan XİN-ə çağırılmışdı).

Ötən həftə KTMT-nin Astanada keçirilən sammitində də Belarus lideri Azərbaycana münasibətdə eyni sədaqəti göstərmiş, yeni baş katib təyinatında İrəvanı, erməni baş nazir əvəzi Nikol Paşinyanı məyus edən mövqe tutmuş, sammitdən bir neçə gün sonra isə Lukaşenko, üstəlik, sanki İrəvana acıq verirmiş kimi, Azərbaycan səfirini qəbul edərək, Astanada baş verənləri ona - KTMT üzvü olmayan bir ölkənin diplomatına danışmışdı.

"Yeni Müsavat" xatırladır ki, həmin mövqe Ermənistan XİN-də kəskin reaksiya doğurmuş, ardınca Nikol Paşindan analoji mövqe bildirərək, "Belarusdan izahat istəyəcəyini" söyləmişdi. Lakin buna rəsmi Minskin reaksiyası daha sərt olmuşdu. Paşinyan "küçə adamı" kimi, "beynəlxalq prokuror qismində özünü zənn edən" qeyri-adekvat siyasətçi" kimi xarakterizə edilmişdi. Və nəhayət, bütün bu baş verənlərdən az sonra Azərbaycan prezidentinin ermənilərə əzici təsir edən Minsk səfəri...

*****

Bu arada Nikol Paşinyan onun Belarusla bağlı açıqlamasına rəsmi Minskin reaksiyasına münasibət bildirib. "Yeni Müsavat" "Sputnik-Armeniya"ya istinadən xəbər verir ki, baş nazir əvəzi Qeqaqarkunik vilayətinin vilayət administrasiyasında çıxışı zamanı hədələyici tonda deyib: **"Ermənistanın beynəlxalq tərəfdaşları artıq ciddiyə almalıdırlar ki, münasibətlər daha əvvəlki məntiqlə qurulmayacaq və Ermənistan daha özünü kimə görəsə düzənləməyəcək və özünü ona uyğunaşdırmayacaq".**

**"Elə təəssürat yaranır ki, sanki çoxları bizə inersiya üzrə balaca ölkə kimi, balaca xalq kimi yanaşır. Ancaq mən demək istəyirəm ki, biz buna dözməyəcəyik. Biz - min illik tarixi olan xalqıq", - deyə o, ənənəvi erməni yalanları ruhunda, özündən razı şəkildə bildirib.**

Bu da hamısı deyil. Paşinyan toplaşanları əmin edib ki, "erməni xalqı və hökuməti ölkənin maraqlarını qorumaq iqtidarındadır". Ancaq bunu o, necə, nəyin hesabına edəcək, açıqlamayıb. Yalnız bu sözləri əlavə edib: **"Ermənistanla hamı hesablaşmalıdır. Və mən söz verirəm ki, bundan sonra hamı hesablaşacaq".**

*****

Erməni baş nazir əvəzi bununla sözsüz ki, ilk növbədə Rusiyanın "bostanına daş atıb", ona faktiki, meydan oxuyub. Mövcudluğu rusun silahından, hərbçilərindən, təbii qazından asılı olan, xarici ianələrə göz dikən, xarici sərhədlərini belə Rusiyanın qoruduğu cırtdan və forpost bir ölkənin başçısının hamıya, o cümlədən Moskvaya meydan oxuması çox maraqlıdır. Görünür, rəsmi Minskin bəyan elədiyi kimi, Paşinyan heç cür küçə ovqatından çıxıb sərt reallıqların gözünə baxmağa macal tapmayıb.

İkinci yandan, şübhə yox ki, bununla o, həm də Astana fiaskosunu pərdələmək və seçki öncəsi öz reytinqini daha da "gümrahlaşdırmaq" istəyir. Çünki İrəvanın kiminsə onunla hesablaşması üçün nə ciddi siyasi-iqtisadi resursu, nə də siyasi çəkisi və nüfuzu var. Olsa-olsa, Paşinyan Rusiyanı yalnız xarici siyasət kursunu Qərbə dəyişməklə hədələyə və şantaj edə bilər ki, bu da əksər analitiklərə, o sırada yerli erməni təhlilçilərə görə, işğalçı ölkəyə ucuz oturmaz. Bu mənada erməni baş nazir əvəzinin son demarşlarını və pafoslu sözlərini "vobank" getmək kimi də qiymətləndirmək olar...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# İran prezidentinin Bakı ilə bağlı əminliyinin səbəbi



## **Fərəc Quliyev:** "İran ya davranışını dəyişəcək, ya da İranı dəyişəcəklər"

## **Elçin Mirzəbəyli:** "İran dövlətçiliyinin yeganə qarantı Azərbaycan türkləridir"

**"İran-Azərbaycan münasibətlərini heç kim poza bilməz. Bu münasibətlər qarşılıqlı faydalı əməkdaşlığa, etimada və dostluğa əsaslanır". Bu sözləri İran prezidenti Həsən Ruhani Qərbi Azərbaycan vilayətinin Xoy şəhərində xalq qarşısında çıxış edərkən deyib. Ruhani bildirib ki, İranın düşmənləri müxtəlif təxribatlarla onun Türkiyə, İraq və Azərbaycanla münasibətlərini korlamağa çalışıblar. Lakin tərəflərin qarşılıqlı etimadı bu təxribatların baş tutmasına imkan verməyib. O, Allahdan başqa heç kimdən qorxmadıqlarını deyib.**

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** hesab edir ki, Ruhani vəziyyətin nə qədər gərgin olduğunu bilir: "İran prezidenti yaxşı başa düşür ki, belə vəziyyətdə dəyişməyə məhkumdurlar. İran ya davranışını, vəziyyətini dəyişəcək, ya da İranı dəyişəcəklər. Azərbaycan və Türkiyə ilə bağlı Ruhaninin verdiyi mesajlar daha çox dövlətlərarası əlaqələrə əsaslanır. Türkiyə ilə bağlı verdiyi mesajda əminliyini onun üçün ifadə edir ki, Amerikanın qardaş ölkə ilə münasibətləri bir müddət öncə gərgin idi, son vaxtlarda münasibətlərin sahmana salınması üçün müəyyən addımlar atılsa da, hələ ki müəyyən gərginliklər qalmaqdadır. Ruhani bilir ki, Amerika-Türkiyə münasibətləri düzəlməyənə qədər ölkəsi ilə rəsmi Ankara arasında zorən müttəfiqlik qalacaq. Türkiyənin qonşu ölkələrlə münasibətlərini onun üçün saxlamağa çalışdığını anlayır ki, ortada PKK məsələsi də var. Türkiyə-İran münasibətlərində enerji məsələləri də mühüm rol oynayır. Bu tipli məsələlərə əmin olduğundan Ruhani belə mesajlar verir. Azərbaycana münasibətə gəlincə, məsələ bir qədər fərqlidir. Rəsmi Bakı tərəfindən qonşu dövlətlərdən heç birinə qarşı aqressiya olmayıb, münasibətləri pozmağa çalışılmayıb. Qonşuluq siyasətini Azərbaycan daim yürüdüb. Amma İran faktiki olaraq, torpaqlarımızı işğal edən Ermənistana böyük bir pəncərə açıb, bütün enerji qaynaqlarını onun istifadəsinə verib. Bundan əlavə, digər sahələr üzrə də düşmənimizə güzəştlər edir. Bu baxımdan Ruhaninin Azərbaycanla bağlı dedikləri ola bilsin ki, rəsmi protokol qaydasına əsaslanır. Azərbaycanla İran "Cənub-Şimal" dəhlizi məsələsində transfer ölkələrdir. Ölkələrarası iqtisadi əlaqələr də var. Amma Azərbaycan üçün əsas məsələ Dağlıq Qarabağdır. Əgər bu məsələdə istənilən ölkənin mövqeyi fərqlidirsə, həmin ölkənin rəhbəri bu qədər əminliklə danışmalı deyil. Əgər Ruhani Azərbaycanla münasibətlərin yaxşı olmasını istəyirsə, iki məsələdə mütləq hərəkətlərində redaktələr etməlidir. Birincisi, Ermənistana münasibət dəyişməlidir, ikincisi, orada yaşayan 30 milyona qədər soydaşımıza münasibət dəyişməlidir. Bunlar dəyişərsə, Ruhani əminliklə danışa bilər. Əks halda, onun dediklərinin heç bir ciddi əsasları yoxdur".

**Politoloq Elçin Mirzəbəyli Ruhaninin əminliyini Azərbaycanın bu günə qədər yürütdüyü siyasətlə əlaqələndirir:** "Azərbaycan öz ərazisindən İrana qarşı istifadə edilməyəcəyini bəyan edib və ölkəmizin bu mövqeyi hətta güc mərkəzləri tərəfindən də hörmətlə qarşılanır. Düşünürəm ki, Ruhaninin bu açıqlamasında adıçəkilən dövlətlərlə bağlı etno-sosial və etno-psixoloji amilləri də nəzərə almaq lazımdır. Digər tərəfdən, bu mesajlar təkcə Azərbaycan və Türkiyəyə deyil, İranda - öz tarixi vətənlərində yaşayan Azərbaycan türklərinə də hesablanıb. Bu gün İran dövlətçiliyinin qorunub saxlanmasının yeganə qarantı Azərbaycan türkləridir və təbii ki, onlarla eyni mədəniyyətə, dilə, tarixə sahib olan Azərbaycan və Türkiyənin vətəndaşlarıdır. Bu, nə qədər paradoksal görünsə də, belədir. Və yaxşı olardı ki, İranın siyasi hakimiyyəti də bunu başa düşsün və ikibaşlı oyunlardan əl çəksin, Azərbaycanın illər boyu sərgilədiyi qətiyyətli, səmimi münasibətin qarşılığını verərək Ermənistanla əlaqələrini tamamilə kəssin. Bu, artıq əməlin qarşısında söz yox, əməl anlamına gələ bilər. Əks təqdirdə, belə bəyanatları nəinki Azərbaycan və Türkiyə, heç Güney Azərbaycan türkləri də yeməyəcək. ABŞ-ın himni də "Tanrı Amerikanı qorusun" sözləri ilə zəngindir. Birləşmiş Ştatların bütün prezidentləri bu ifadədən istifadə ediblər. Tramp da bu sözləri tez-tez təkrarlayır. Dürüst, öz xalqının mənafeyin xidmət edən, insan hüquq və azadlıqlarını pozmayan, bəşəri dəyərlərə meydan oxumayan siyasət yürütdünsə, Allahdan da qorxmaq lazım deyil. Allah cəza mexanizmi deyil və bu təfəkkür əsrlərdir müsəlman ölkələrini inkişafdan geridə saxlayır. Allahı dünyəvi işlərə, siyasi oyunlara qatmağın dinlə, imanla heç bir əlaqəsi yoxdur. Məsələnin digər tərəfinə gəldikdə isə, Ruhaninin bu bəyanatları əslində İran hakimiyyətinin narahatlığını göstərir. Əks təqdirdə, Ruhani Allahdan öncə öz bacardıqlarına, İranın iqtisadi və hərbi gücünə istinad edərdi. İranın heç bir dövlətin daxili işinə qarışmadığı barədə fikirlər ümid edirəm ki, Tehranın bundan sonra yürüdəcəyi siyasətə aiddir. İran-Azərbaycan münasibətlərinin perspektivinə gəldikdə isə, bu rəsmi Tehranın yürüdəcəyi siyasətdə asılıdır. Ermənistanla bağlı məsələ isə təkcə Azərbaycan dövləti üçün deyil, İranın öz daxili siyasəti üçün də mühüm əhəmiyyət daşıyır. İran bununla bağlı bizə dil, din, tarix və mədəniyyət baxımından kifayət qədər uzaq olan Belarusdan nümunə götürsə, pis olmaz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**Məlum olduğu kimi, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu oktyabrın 1-dən təmirə dayandırılıb. Təmir prosesinin təxminən bir ay davam edəcəyi nəzərdə tutulurdu.**

# Benzinin bahalaşması gündəmdən çıxdı-Neft Emalı Zavodunda təmir bitdi

## NEZ-də yenidənqurma işlərinin 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulub



SOCAR zavoddakı təmir işləri ilə əlaqədar artıq Rusiyadan Aİ-92 markalı benzinin idxalına da başlamışdı.

**İqtisadçı-alim Qubad İbadoğlu o zaman bildirmişdi ki, həm Rusiyadan idxal zərurəti, həm də “Avro-5" standartlarına uyğun məhsul istehsalının başlanmasına hazırlıqla bağlı Azərbaycanda Aİ-92 markalı benzinin qiymətində artıma gedilə bilər:** ”Nazirlər Kabineti “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nə dəyişikliklər edilməsi haqqında qərar qəbul edib. Ölkəyə idxal edilən Aİ-92 markalı benzin 15 faizlik gömrük rüsumundan azad edilib və bu markalı benzin üçün aksiz dərəcəsi 200 manatdan 1 manata endirilib. Hər iki qərar oktyabrın 1-dən qüvvəyə minib və bu ilin son 3 ayında tətbiq olunacaq. Bundan əlavə, Bakı Neft Emalı Zavodunda modernləşmə işləri aparılır ki, ondan sonra burada “Avro-5" standartlarına uyğun məhsullar istehsal olunacaq. Bundan əlavə, ölkədə avbtomobil idxalında ciddi artım var”. İqtisadçı-alimin fikrincə, bütün bunlar yaxın zamanlarda Azərbaycanda benzin və dizel yanacağının qiymətinin artırılacağını göstərir".

**Bakı Neft Emalı Zavodu planlaşdırılmış illik təmirə dayandığı müddət ərzində 70 min ton Aİ-92 markalı benzin idxal edilib. Bunu “Report”a açıqlamasında SOCAR-ın ictimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib.**

**SOCAR rəsmisi qeyd edib ki, bu həcmin 40 min tonu Rusiyadan idxal edilib:** “30 min ton Aİ-92 markalı benzin isə Avropadan Kulevi terminalı vasitəsilə ölkəyə gətirilib”. İ.Əhmədov bildirib ki, zavodda artıq planlaşdırılmış təmir işləri yekunlaşıb və bütün qurğular işə salınıb.

O, zavodun modernizasiya və yenidənqurma layihəsindən də danışaraq qeyd edib ki, artıq yaxın zamanlarda yeni Bitum qurğusu istifadəyə veriləcək: “Artıq bu qurğunun da açılışına hazırlıq işləri görülür”.

Qeyd edək ki, bu il oktyabrın əvvəlində Heydər Əliyev adına Neft Emalı Zavodu planlaşdırılmış illik təmirə dayandırılmışdı. Prosedurlara uyğun olaraq ildə bir dəfə bütün neft emalı zavodlarında sazlama işləri aparılır. Həmçinin Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda da hər il qrafik üzrə bu sazlama işləri həyata keçirilib.

Bildirək ki, Heydər Əliyev adına Neft Emalı Zavodunda modernizasiya və yenidənqurma layihəsinə 2015-ci ildən başlanılıb.

NEZ-də yenidənqurma işlərinin 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulub:

I mərhələ üzrə 2018-ci ilin sentyabr ayında yeni bitum qurğusu və müvafiq ümumi zavod təsərrüfatı qurğularının, eləcə də yeni maye-qaz doldurma məntəqəsinin tikilib istismara verilməsi;

II mərhələdə 2020-ci ilin sonunadək “Euro-5" keyfiyyət standartına cavab verən dizel yanacağının alınması üçün yeni qurğuların inşası və müvafiq yenidənqurma işlərinin icrası;

Son mərhələdə isə 2021-ci ildə “Euro-5" keyfiyyət standartına cavab verən Ai-92/95/98 benzin məhsullarının istehsalı üçün müvafiq yeni qurğuların inşası və yenidən qurulması işlərinin aparılması.

Aparılacaq işlər nəticəsində istehsal olunan benzin və dizel yanacağının keyfiyyət göstəriciləri “Euro-5" standartına cavab verəcək, həmçinin bazarın tələbatına uyğun olaraq zavodda Ai-92/95/98 benzin markalarının istehsalı təmin ediləcək.

❑ **DÜNYA,
“Yeni Müsavat”**

# “Bloomberg”: “Neftin qiymətini şahzadə və 2 prezident müəyyən edir”



**Dünya bazarında neftin qiymətini 3 nəfər - Səudiyyə Ərəbistanı şahzadəsi, Rusiya və ABŞ prezidentləri müəyyən ediblər və bundan sonra da müəyyən edəcəklər. “Report” xəbər verir ki, bu barədə “Bloomberg” agentliyi yazıb.**

Agentliyin köşə yazarı Culian Linin fikrincə, Neft İxrac Edən Ölkələr Birliyi (OPEC) neftin qiymətinə nəzarət etmək imkanını əldən verib.

“Hazırda ABŞ, Rusiya və Səudiyyə Ərəbistanı birlikdə OPEC üzvü olan 15 ölkədən daha çox neft istehsal edir. ”Qara qızıl"ın qiymətinə təsir edən həmin 3 insanın müxtəlif məqsədləri var. Səudiyyə Ərəbistanı dövlət büdcəsini artırmaq üçün yanacaq istehsalını azaltmaqda davam edəcək. Rusiya 2016-cı illə müqayisədə neftin qiymətindən daha az asılıdır və bu ölkənin neft şirkətləri artıq yatırdıqları investisiyalardan pul qazanmaq istəyirlər. Prezident Vladimir Putini neftin hər barel üçün 70 dollarlıq qiyməti “tam olaraq qane edir". Prezident Donald Trampın mövqeyi isə sözün həqiqi və məcazi mnənasında daha “möhkəmdir”. Çünki rəsmi Vaşinqton Ər-Riyadla jurnalist Camal Qaşıqçının qətli fonunda yaxşı münasibətlər saxlamağa çalışır. Baxmayaraq ki, ABŞ Senatı Səudiyyə Ərəbsitanına qarşı sanksiyaların sərtləşdirilməsini təkid edir", - yazar deyib.



# Neft Fondu bu şəhərlərdən daşınmaz əmlak alıb-London, Moskva, Paris...

## ARDNF-in icraçı direktoru: “Daşınmaz əmlaka yatırılan investisiyaların özünü doğrultduğunu demək mümkündür”


Şahmar Mövsümov

**Zaman-zaman bəzi iqtisadçı ekspertlər Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF), eləcə də onun investisiya fəaliyyəti, xüsusilə daşınmaz əmlak yatırımları ilə bağlı tənqidi fikirlər səsləndirirlər.**

“Dövlət Neft Fondu (ARDNF) daşınmaz əmlaka investisiya çərçivəsində Avropa, Asiya və Sakit Okean Hövzəsi regionlarında London, Moskva, Paris, Milan, Tokio, Seul kimi şəhərlərdə daşınmaz əmlaka birbaşa investisiyalar həyata keçirib”. Dövlət Neft Fondunun İcraçı direktoru Şahmar Mövsümov “Report”a müsahibəsində belə deyib. Onun sözlərinə görə, ARDNF 2015-ci ildən etibarən inkişaf etmiş bazarlarda fəaliyyət göstərən, müxtəlif strategiyalarla, müxtəlif daşınmaz əmlak sektorlarına yatırım edən dünyanın qabaqcıl daşınmaz əmlak fondlarına investisiyalar həyata keçirməyə başlayıb: “Ümumilikdə daşınmaz əmlaka yatırımlarına başlanılandan keçən ilin sonuna qədər orta illik gəlirlilik təxminən 7,2% olub ki, bunun əsasında da ARDNF-in daşınmaz əmlaka yatırdığı investisiyaların özünü doğrultduğunu demək mümkündür. Ümumiyyətlə, dünyanın qabaqcıl araşdırma institutlarının hesabatlarına əsasən növbəti ildə dünyanın əsas daşınmaz əmlak bazarlarında inkişaf gözləntiləri var. ARDNF-in investisiyalarının mövcud olduğu ölkələr də inkişaf proqnozları verilən ölkələr siyahısındadır”.

**Ş. Mövsümov deyib ki, ARDNF vəsaitlərin idarə olunmasında əsasən daxildə idarəetməyə üstünlük verir:** “30 sentyabr 2018-ci il tarixinə ARDNF-in investisiya portfelinin 90%-i daxildə idarə olunur. Bununla belə, ARDNF-in vəsaitlərinin idarə olunmasında xarici menecerlərin xidmətlərindən də istifadə olunur ki, bu da əsasən onların müvafiq sahələrdəki bilik və bacarıqlarından faydalanmaq, eləcə də qabaqcıl dünya təcrübəsinin daxili idarəetmədə olan portfelə tətbiqi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. ARDNF-in hazırda sabit gəlirli qiymətli kağızlar portfelinin də kiçik bir hissəsi xarici menecerlər tərəfindən idarə olunur və onların ümumi sayı 7-yə bərabərdir. Bunlar Dünya Bankı, ”Deutsche Bank Advisors", “UBS Asset Management", “State Street Global Advisors”, “Mellon Capital Management”, “BlackRock Investment Management” və “Sumitomo Mitsui Trust İnternational Limited” şirkətləridir. Bununla yanaşı, ARDNF-in özəl səhmlər və daşınmaz əmlaka yatırımları zamanı əməkdaşlıq etdiyi qurumların sayı 20-dən çoxdur. İstər səhm və sabit gəlirli qiymətli kağızlar portfelinin müəyyən hissəsinin idarə edilməsi üçün cəlb edilən menecerlərin, istərsə də özəl səhm və daşınmaz əmlak yatırımları üçün istifadə olunan fond menecerlərinin seçilməsi prosesi qabaqcıl təcrübəyə və ARDNF-in investisiya strategiyasına uyğun şəkildə həyata keçirilir".

**“Azərbaycanın 2019-cu il üzrə dövlət büdcəsi layihəsində neftin 1 barelinin qiymətinin 60 dollardan götürülməsi nəzərdə tutulur. Gələn il üçün proqnozlar nədən ibarətdir” sualına Dövlət Neft Fondunun icraçı direktoru belə cavab verib:** “ARDNF-in 2019-cu il üzrə büdcəsində xam neftin baza qiyməti dövlət büdcəsi ilə eyni 60 ABŞ dolları səviyyəsində götürülüb ki, bu qiymətlə 2019-cu ildə ARDNF-in icmal büdcə layihəsinə daxil olan gəlirləri 9 164,2 milyon ABŞ dolları və yaxud 15 579,2 milyon manat, xərclərinin isə 6 684,9 milyon ABŞ dolları və yaxud 11 364,3 milyon manat, büdcə profisitinin həcminin 4 214,9 milyon manat olması proqnozlaşdırılır. Eyni zamanda xam neftin yüksək qiymətləri şəraitində fondun gəlirlərinin proqnozdan daha çox olması gözlənilir”.

# Borca görə axtarışda olan 24 nəfər saxlanıldı

**Daxili işlər orqanlarında qeydə alınan cinayət və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 119 cinayət faktı qeydə alınıb, onların da 17-si “isti izlər”lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalmış 22 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 35 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarışda olan 24 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 8 nəfər ölüb, 3 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 4 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 27 nəfər saxlanılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Dağlıq Qarabağ konfliktinin həllində yəqin ki, son sözü gec-tez hərbi faktor deyəcək. Söhbət heç də labüd müharibədən getmir. Məsələ ondadır ki, hərbi güclə hədələmə də diplomatik danışıqlarda mühüm önəm kəsb edir. Yəni Azərbaycanla müharibədən qalib ayrılmağın qeyri-mümkünlüyünü dərk edən işğalçı ölkə günün birində qüvvələr nisbətini ciddiyə alıb da sülhə gələ bilər.**






# İşğalçıya bəd xəbər - Azərbaycana yeni silahlar gətirilir

## Azərbaycan prezidentinin Belarusa səfəri Qarabağ məsələsində konstruktiv mövqe tutmaq üçün Ermənistana daha bir xəbərdarlıqdır; düşmən ölkədəki seçkilərdən sonra sülh, yoxsa müharibə "sifariş" ediləcək?..

Hələliksə ərazisinin 20%-i işğal altında olan Azərbaycan ATƏT-in Minsk Qrupu həmsədrlərinin on illərdir nəticə verməyən "vasitəçiliyi" fonunda öz hərbi qüdrətini artırmaq zorundadır. Bu yöndə mühüm istiqamətlərdən biri də tərəfdaş və dost ölkələrdən silah tədarükü, paralel olaraq yerli hərbi-sənaye kompleksini inkişaf etdirməkdir. O sırada dost Belarusun ölkəmiz üçün çəkisi getdikcə artmaqdadır. Bunu Azərbaycan prezidenti İlham Əliyevin Belarusa növbəti səfəri bir daha təsdiq elədi.

*****

"Belarus və Azərbaycan növbəti Belarus hərbi texnikası partiyasının ölkəmizə çatdırılması üzrə müqavilə üzərində işləyirlər". Bunu srağagün Minskdə Belarus prezidenti Aleksandr Lukaşenko ilə danışıqların yekununda prezident İlham Əliyev deyib. Həmin gün danışıqların yekunu üzrə Belarus Hərbi Sənaye Dövlət Komitəsi ilə Azərbaycan Müdafiə Nazirliyi arasında hava hücumundan müdafiə silah və texnikasının təchizi sahəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barədə qarşılıqlı anlaşma haqqında memorandum imzalanıb.

**"Ən qısa müddətdə o, Belarusdan növbəti hərbi texnika partiyasının alınması üçün müqaviləyə transformasiya olunacaq", - deyə İlham Əliyev bildirib. Ölkə başçısı onu da bildirib ki, Azərbaycan hərbi sferada Belarusla əməkdaşlıqdan məmnundur, çünki Belarusun hərbi texnikası keyfiyyətli və effektlidir.** "Ona görə də təsadüfi deyil ki, bizim ölkələrimiz arasında hərbi-texniki əməkdaşlıq artıq yaxşı bir tarixə, kifayət qədər böyük həcm və genişlənmək üçün yaxşı tendensiyaya malikdir", - deyə Azərbaycan prezidenti vurğulayıb.

Xatırladaq ki, Azərbaycan Belarusdan son olaraq, "Polonez" raket sistemləri alıb. Bu sistemlər "İsgəndər M" sistemlərinə analoq sayılır. Ermənistanı narahat edən həm də budur.

Beləcə, Azərbaycan özünün silahlanma strategiyasını bir az da təkmilləşdirməkdədir. Təbii ki, əsas hədəf silahlı qüvvələrimizin hərbi və döyüş hazırlığını ən yüksək səviyyəyə çatdırmaq, düşmən üzərində əzici hərbi üstünlüyü təmin eləməkdir. Bu üstünlük isə ilbəil artmaqdadır. Çünki işğalçı ölkənin Azərbaycan qədər maliyyə imkanları yoxdur. Rusiyanın güzəştli faizlə verdiyi kreditlər hesabına isə silahlanma yarışında Azərbaycanla ayaqlaşmaq mümkün deyil.

*****

Münaqişə tərəfləri arasında hərbi göstəricilər üzrə bu böyük fərqi xarici ekspertlər də qeyd edirlər. Ermənistan isə ümidlidir ki, Azərbaycanı təxribata çəkməklə təmsil olunduğu KTMT hesabına vəziyyətdən çıxa biləcək. Lakin dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan Ermənistana hücum eləməyə hazırlaşmır. Azərbaycanın əsas hədəfi işğalçı qüvvələri öz torpaqlarından çıxarmaq və ərazi bütövlüyünü təmin eləməkdir.

**"Dağlıq Qarabağ zonasında müharibə başlayacaqsa və hərbi hərəkətlər Ermənistan ərazisinə keçməyəcəksə, Rusiya bu prosesə qarışmayacaq". Bunu rusiyalı hərbi ekspert Aleksandr Xramçik erməni KİV-ə müsahibəsində deyib (publika.az). Onun sözlərinə görə, Ermənistan "qırıcı aviasiyasına" malik deyil:** "Ermənistanda yalnız hücum təyyarələri var, qırıcılar olmadığı üçün bu, faktiki olaraq faydasızdır. Qırıcılar yoxdursa, müharibə vaxtı hücum təyyarələrini qorumaq mümkün olmayacaq".

Xramçik qeyd edir ki, müasir qırıcıların dəyəri 50 milyon dollar dəyərindədir. "Rusiya müdafiə sənayesi həm öz ordusu, həm də Qazaxıstan ordusunun təchizatına görə yüklənib. Əgər Ermənistana qırıcıların verilməsi ilə bağlı qərar verilərsə, bu, 2-3 ildən tez olmayacaq", - deyə o bildirib.

**Bununla yanaşı, rusiyalı ekspert hesab etmir ki, pilotsuz təyyarələr aviasiyanın yoxluğunu kompensasiya edə bilər:** "Hətta Ermənistanın "Su-25" hücum təyyarələri də aviasiyanı kompensasiya edə bilmir. Hava Hücumundan Müdafiə sistemləri aviasiyanın yoxluğunu qismən kompensasiya edə bilər, lakin tamamilə yox. Çünki bu sistemlər passiv müdafiədir, əks-zərbələr endirməyə imkan vermir. Bu taktika heç vaxt qələbəni təmin edə bilməz. Müasir dünyada aviasiyaya malik olmayan ölkə heç vaxt döyüşə bilməz".

*****

Əksər hərbi ekspertlər əmindirlər ki, Azərbaycan xüsusən də havada düşmən ölkə üzərində böyük üstünlüyə malikdir. Bu isə öz növbəsində mümkün müharibənin taleyinin kimin xeyrinə həll olunacağı deməkdir. Lakin hələ ki müharibədən qaçmaq imkanları tükənməyib. Yəqin ki, tam mənzərə Ermənistanda növbədənkənar parlament seçkiləri bitəndən sonra aydın olacaq.

Əgər seçkilərdə qələbə ehtimalı böyük olan Nikol Paşinyan sələflərinin yanlış, təhlükəli və dalana aparan yolunu davam etdirsə, o zaman müharibə "sifarişi" xeyli dərəcədə verilmiş olacaq. Hər halda, dəfələrlə deyildiyi kimi, Bakı böyük paralar xərcləyib aldığı müasir hərbi texnika və sistemləri yalnız vitrinə qoymaq, yaxud vaxtaşırı hərbi paradlarda nümayiş etdirməklə kifayətlənmək fikrində deyil.

Sözsüz ki, silahlara verilən pullar ölkənin, xalqın başqa ehtiyaclarına da yönəldilə bilərdi. Ancaq bu barədə ilk növbədə blokadada olan kasıb Ermənistanın rəhbərliyi düşünməlidir. Çünki Ermənistandan fərqli olaraq, Azərbaycanın maliyyə resursları qat-qat böyükdür. İşğalçı ölkə isə kreditlə aldığı silahlar qarşılığında getdikcə Rusiyadan daha güclü asılılığa düşür. Bir ölkə başqa bir ölkədən maliyyə-iqtisadi asılılıqdadırsa, deməli, həm də siyasi asılılıqdadır və onun suverenliyindən, müstəqilliyindən danışmağa dəyməz.

Bu acı gerçəkdən Paşinyan iqtidarı da qaça bilməyəcək. Gerçəyi yaxşıya dəyişməyin yeganə yolu isə qonşu Azərbaycan və Türkiyə ilə vaxt itirmədən anlaşmaq, blokadadan çıxmaqdır. Yol çoxdan bəlli...



# Bu gün Zakir Həsənov Bakıda üçtərəfli görüş keçirəcək

**Bu gün - noyabrın 21-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia ilə görüş keçirəcək.**

Müdafiə Nazirliyindən musavat.com-a-a verilən məlumata görə, görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional sabitliyin, o cümlədən bölgədə həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

YENİ MÜSAVAT
N 248 (7137) 21 noyabr 2018

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## Qida Təhlükəsizliyi Agentliyi adından rüşvət alanların məhkəməsi başladı

### Təqsirləndirilən şəxs: "Dələduzluq etmişəm, amma ailəmi dolandırmaq üçün başqa yolum yox idi"

**Bakı Ağır Cinayətlər Məhkəməsində özlərini Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları kimi təqdim edərək rüşvət almaqda ittiham olunan Elnur Rzayev və Səfər Vəliyevin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Müsavat.com-un un xəbərinə görə, prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. Təqsirləndirilən şəxslər onlara elan olunmuş ittihamla özlərini qismən təqsirli biliblər.

E.Rzayev ifadəsində özünü Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı kimi təqdim etmədiyini, üç epizodda iştirak etdiyini göstərib. O, əvvəllər Sahibkarlıq Hüquq Cəmiyyətində çalışdığını bildirib: "Orada sahibkarlara könüllü təlim keçirdim. Buna görə də sahibkarlardan zəhməthaqqı alırdım. Bir çox mağazalar bizim təklifimizi qəbul etmişdi. Gedib orada saxlama müddəti ötmüş malları aşkar edirdik və sonra sahibkarlara başa salırdıq. Biz mağazalara gedəndə heç Qida Təhlükəsizliyi Agentliyi yaranmamışdı. Ümumiyyətlə, agentliyin adından istifadə etməmişik. Sonra cəmiyyət ləğv edildi və vəsiqəni sədrimiz Əli müəllimə verə bilmədik".

**Təqsirləndirilən E.Rzayev törətdiyi əməldən peşman olduğunu deyib:** "Əvvəllər məhkum olunmuşam. Buna görə də heç yerdə işə götürmürdülər. Dələduzluq etmişəm, amma ailəmi dolandırmaq üçün başqa yolum yox idi".

Qeyd edək ki, Qida Təhlükəsizliyi Agentliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış birgə araşdırmalar nəticəsində Rzayev Elnur Qadir oğlu və Vəliyev Səfər Məhəmməd oğlunun qabaqcadan əlbir olub cinayət əlaqəsinə girməklə uzun müddət ərzində mütəmadi olaraq Bakı şəhəri və respublikanın ayrı-ayrı rayonlarında fəaliyyət göstərən ərzaq mağazaları sahiblərinə özlərini Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları kimi təqdim edərək, mağazalarda yoxlama aparılmaması müqabilində rüşvət verməyə təhrik edərək onlardan pul almasına dair əsaslı şübhələr müəyyən edildiyindən, E.Rzayev və S.Vəliyevə Cinayət Məcəlləsinin 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və 32.4, 312.2-ci (rüşvət verməyə təhrik etmə) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Qida Təhlükəsizliyi Agentliyi ərzaq mafiyasına qarşı: kim qalib gələcək?

### Bəzi qüvvələr AQTA-nın fəaliyyətini əngəlləməyə, həmçinin onun nüfuzuna zərbə vurmağa cəhd edirlər

**Qida təhlükəsizliyinin təmin olunması hər bir dövlətin öz vətəndaşları qarşısında ən vacib vəzifələrindən biridir. Bu baxımdan, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ölkənin qida təchizatı zəncirinin bütün həlqələri boyu baş verən və əhalini narahat edən qanunsuzluqların aradan qaldırılması sahəsində mühüm addımdır.**

Müstəqillik dövründə indiki qədər qida təhlükəsizliyi məsələsi diqqət mərkəzində olmayıb. Əhali arasında yaranma səbəbləri qidalanmaya bağlı müxtəlif xəstəliklərin geniş yayılması hökumətin bu problemli sahəni nəzarətə götürmək üçün hərəkətə keçməsinə səbəb olub.

Qida təchizatının bütün sahələrində təhlükəsizliyin təmin olunmasının necə əhəmiyyətli və vacib olduğunu isbatlamaq üçün bir faktı qeyd etməyə dəyər. Belə ki, hər il Azərbaycan xaricdən yüz min tonlarla buğda idxal edir. Ötən il buğda idxalına 227 milyon dollar vəsait xərclənib. Bu ilin on ayında isə 176 milyon dollarlıq buğda alınmışıq xaricdən. İndiyədək aldığımız buğdanın tərkibi, daşınması ilə bağlı hansısa təhlükənin olacağı kiminsə ağlına gəlməyib. Lakin bir neçə həftə öncə Aktaudan Bakıya taxıl daşıyan İrana məxsus "Nazmerr" gəmisinin heyət üzvləri kütləvi şəkildə zəhərləndilər. Onlardan 3 nəfəri vəfat etdi. Məlum oldu ki, zəhərlənməyə gəmidə daşınan taxıla vurulan kimyəvi maddə səbəb olub. O zaman heç kim aydınlıq gətirmədi ki, əhalinin qida rasionunda mühüm yer tutan taxıla hansı dərman vurulub ki, bu qədər ağır zəhərlənməyə gətirib çıxarıb? Həmin dərmanın vurulduğu taxılın taleyi necə oldu?

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin 10 ayında ölkəmizə 1 milyard 111 milyon 686,94 min dollarlıq yeyinti məhsulları idxal olunub. Dövlət Statistika Komitəsi isə bildirir ki, bu dövrdə ölkənin pərakəndə ticarət şəbəkəsində 13 milyard 514,9 milyon dollarlıq ərzaq məhsulları satılıb. Bu qədər geniş bazarda qayda-qanun yaratmaq, qida təhlükəsizliyi üzrə standart və qaydalara əməl olunmasını təmin etmək çox çətin işdir. Çətinlik yalnız çoxşaxəli fəaliyyətlərin həyata keçirilməsində deyil, həm də ölkədə uzun illərdən bəri formalaşmış olan ərzaq oliqarxiyasına qarşı dayanmaqdadır.

Heç kimə sirr deyil ki, Azərbaycanda illər boyu idxal monopoliyası mövcud olub. Ölkənin iqtisadi çətinliklər yaşadığı illərdə belə bu monopoliya gəlirindən əl çəkmək istəmirdi. Lakin ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyəti nəticəsində 2016-cı ildən başlayaraq bu monopoliya aradan qaldırıldı. Eyni zamanda Azərbaycanda müxtəlif ərzaq məhsullarının istehsalının da inhisarların əlində cəmləşməsi müşahidə olunmaqdadır. İllər boyu ərzaq idxalı və istehsalından milyardlar qazanan bu monopolist qüvvələrin qida təhlükəsizliyinə dair sərtləşən tələblərə boyun əyməsinə nail olmaq üçün AQTA-ya ölkə rəhbərliyi səviyyəsində zəruri dəstək verilir. Bu dəstəyin sayəsində qurum fəaliyyətə başlayan kimi ölkə əhalisinin qida təhlükəsizliyini təmin etmək üçün ən sərt addımlar atmağa başlayıb. Ərzaq məhsullarının idxalı və istehsalının bütün mərhələlərini əhatə edən bu addımlar isə gözlənildiyi kimi, müqavimətlə qarşılanmaqdadır.

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, bəzi qüvvələr bir neçə istiqamətdən AQTA-nın fəaliyyətini əngəlləməyə, həmçinin onun nüfuzuna zərbə vurmağa cəhd edirlər. Birinci istiqamət AQTA-ya əvvəlki qurumlardan "miras" qalan korrupsiyalaşmış əməkdaşlardır. Artıq son həftələrdə belə əməkdaşların pul müqabilində müxtəlif qanunsuzluqlara göz yumduqlarına dair 2 faktın üstü açılıb. İllər boyu rüşvət müqabilində hər cür qanunsuzluğa getmiş belə əməkdaşlar yəqin ki, yenə var. Onların "yardımından" bəhrələnmək istəyənlərin öz məqsədlərinə nail olmaları isə çətin görünür.

Qeyd edək ki, dövlət başçısı tərəfindən AQTA-nın fəaliyyəti ilə bağlı bir neçə dəfə ifadə edilən açıq dəstək belə ərzaq bazarında oturuşmuş mafiyanı çəkindirmir. Bu mafiya müxtəlif mətbu orqanlarda agentliyin fəaliyyətini gözdən salmağa yönələn materiallar dərc etdirir. Əksəriyyəti qurumun özünün aşkarladığı və hüquq-mühafizə orqanlarına təqdim etdiyi qanunsuzluq faktları üzərində qurulan bu materiallarda əsas hədəf kimi AQTA rəhbərliyi götürülür.

Əlbəttə, cəmi 4-5 aydır qida təhlükəsizliyinin qorunması kimi strateji sahədə fəaliyyət göstərən bir qurumun işində müəyyən çatışmazlıqlar olmamış deyil. Bəzən bu çatışmazlıqlar sahibkarları narazı salır. Həmin sahibkarların bir qrupu bu yaxınlarda "Yeni Müsavat"a müraciət edərək, AQTA-nın ASAN xidmət vasitəsilə göstərilən xidmətlərində ləngimələrə yol verildiyini, bunun isə onlara zərər vurduğunu bildirmişdilər. Bu günlərdə sahibkarların dediklərindən aydın oldu ki, artıq həmin ləngimələr aradan qaldırılıb, sənədləri vaxtında rəsmiləşdirilir. Bu isə o deməkdir ki, agentlik qüsur olan nöqtələrə qarşı həssasdır və aşkarlanan problemləri aradan qaldırmaqda maraqlıdır.

Yeri gəlmişkən, qeyd edək ki, agentliyin yeyinti məhsulları ilə bağlı qida təhlükəsizliyinin təmin olunması sahəsində rolu bu günlərdə Nazirlər Kabinetinin qərarı ilə dəqiq müəyyənləşdirilib. Belə ki, "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilib. Həmin dəyişikliyə əsasən yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən dövlət nəzarəti orqanı (Qida Təhlükəsizliyi Agentliyi) qida (yeyinti) məhsulları sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən məhsulların minimum keyfiyyət və təhlükəsizliyinə dair tələblərə, onların istehsal, daşınma, saxlanma, qablaşdırma, etiketləşdirmə və satış şərtlərini müəyyən edən ekoloji, sanitariya, baytarlıq və fitosanitar norma, qayda və tələblərinə (bundan sonra - qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara) riayət edilməsinə nəzarəti həyata keçirəcək. Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara əməl olunmasına dövlət nəzarəti funksiyalarının həyata keçirilməsində digər orqanların iştirakına yol verilməyəcək.

Biz bu gün AQTA-nın qida təhlükəsizliyimizin qorunması üçün bir neçə istiqamətdə gərgin mübarizəsinə şahidlik etməkdəyik. Bu mübarizənin ana xəttində ərzaq mafiyasının bu quruma qarşı fəaliyyətləri də var. Ümid edirik ki, mübarizədən AQTA qalib ayrılacaq, əks halda, sağlamlığımıza vurulan zərər getdikcə daha geniş miqyas alacaq.

**❑ TURQUT,**
**"Yeni Müsavat"**

## Toyda zəhərlənmə

**Şəki rayonunda qidadan zəhərlənmə hadisəsi baş verib.**

Noyabrın 19-dan 20-nə keçən gecə rayonun Öyrət kənd sakini, 1961-ci il təvəllüdlü Gülxanım Ziyəddin qızı İsmayılova zəhərlənmə əlamətləri ilə Şəki Rayon Mərkəzi Xəstəxanasına daxil olub.

Xəstəxanadan "Report"a bildirilib ki, müayinə zamanı G.İsmayılovanın noyabrın 19-u axşam saatlarında iştirak etdiyi toy məclisində qidadan zəhərləndiyi məlum olub. G.İsmayılovaya lazımi tibbi yardım göstərildikdən sonra vəziyyəti qənaətbəxş olduğundan ambulator müalicə almaq şərti ilə evə buraxılıb.

YENİ MÜSAVAT
N 248 (7137) 21 noyabr 2018

# Dünya İslam dininə meyl edir - səbəblər...

## Müsəlmanlığı qəbul edən məşhurlar

**Bu ilin oktyabr ayında irlandiyalı müğənni Şineyd O Konnor sosial media hesabından verdiyi açıqlamada İslam dinini qəbul etdiyini açıqlayıb. O, katolik xristianlığı tərk etdiyini və müsəlman olduğu üçün qürur duyduğunu deyib: "Bu, hər bir ağıllı ilahiyyatçının təbii olaraq çatacağı bir nəticədir. Bütün müqəddəs kitablar bizi İslama aparır". 51 yaşlı ifaçı adını da dəyişərək Şühəda Davitt qoyub.**



2017-ci ilin yanvarında Amerikanın qalmaqallı aktrisası Lindsi Loxan İslam dinini qəbul edib. 30 yaşlı Hollivud ulduzu bundan sonra "İnstagram" səhifəsindəki bütün fotolarını yığışdırıb. O, yalnız "Alaikum salam" sözünü saxlayıb. Aktrisa hələ 2015-ci ildə fəal şəkildə "Quran"la maraqlanıb. Son illərdə isə dəfələrlə müsəlman ölkələrinə səfərə gedib.

Əsl adı Kassius Kley olan Məhəmməd Əli 18 yaşında Olimpiya çempionu, 22 yaşında isə artıq dünya çempionu idi. Qəzetlərdə onun haqqında belə yazılırdı: "O, kəpənək kimi süzür, arı kimi sancır". Müsəlman dinini qəbul edib, adını Məhəmməd Əli olaraq dəyişdirməsi böyük əks-səda doğurmuşdu. 1974-cü ilə qədər Məhəmməd Əli 25 titullu boks döyüşünün qalibi olmuş super ulduz idi. 1981-ci ildə Əli boksdan getdiyini elan etdi. Bir müddətdən sonra məlum oldu ki, o, parkinson xəstəliyinə tutulub.

2015-ci ildə amerikalı bir qadın Məşhəd şəhərində kəlmeyi-şəhadəti gətirərək müsəlman olub. Ziyarət etdiyi Məşhəd şəhərində İmam Rzanın fikirləri və düşüncələri ilə yaxından tanış olan bir amerikalı xanım şiə fiqhinə əsasən İslam dinini qəbul edib və İmam Rzanın hərəmindəcə kəlimeyi-şəhadəti gətirərək müsəlman olub. O, 4 illik araşdırmalardan sonra İslam dininin yeganə haqq dini olduğuna qərar verib. Amerikalı müsəlman xanım bundan sonra həyatını İslam üzərində quracağını, İslam dinini, əsl qaynaqları olan Qurani-Kərim və İslami hədislərdən, eyni zamanda İslam alimlərindən öyrəndiklərini Amerika və başqa bölgələrdə yaşayan insanlara da öyrədəcəyini söyləyib. Elina xanım İslam dininin ona rahatlıq, xoşbəxtlik verdiyini, Allahın ayələrini dinləməkdən böyük zövq aldığını bildirərək, hicabın yalnız bir örtük olmadığını, əksinə, bir inanc və əqidə olduğunu, hicabın qadın fitrətinin tələbi olduğunu, İslami mədəniyyət və sivilizasiyanı əks etdirdiyini qeyd edib.

İqtisadi böhran və mənəvi dəyərlərin sarsılması nəticəsində italyanlar İslam dininə üz tuturlar. İtaliyanın İslam Birliyi İcmasının verdiyi məlumata görə, ildə təxminən 5 min italyan İslamı qəbul edir. Son illərdə 70 mindən çox italyan İslam dinini qəbul edib. İslam dinini qəbul edənlərin sayına görə bu ölkə Almaniya və İngiltərə ilə bir sırada durur.

İtaliyanın nüfuzlu "AGP" internet saytının verdiyi xəbərə görə, bu hal bütün Avropada müşahidə edilir. İslamı qəbul edənlərin əksəriyyəti ali təhsilli, xristianlığın əsaslarını yaxşı bilən və cəmiyyətdə nüfuz sahibi olan adamlardır.

İslama gələnlər arzuladıqlarını bu dində tapdıqlarını və müsəlmanların qeyri-müsəlmanlara qarşı yaxşı davrandıqlarını da vurğulayırlar.

Fransanın Marsel şəhərində fəaliyyət göstərən sosial elmlər ali məktəbinin doktorantı Loik lepokun dediyinə görə, 2011-ci ildə 40 min, 2006-cı ildə 100 min fransız İslamı qəbul edib.

2016-cı ildə təkcə ABŞ-da 25 min yerli sakin İslamı qəbul edib. Bu göstərici Böyük Britaniyada 32 min, Fransada 40 min, Almaniyada 4,5 min və Rusiyada 11 min nəfər təşkil edir.

Statistika onu göstərir ki, ABŞ-da qadınlar İslamı kişilərdən 4 dəfə çox qəbul edir.

Kvonsi Universitetinin professor Kevin Bris islamlaşmış Qərb insanları ilə bağlı müəyyən araşdırma aparıb. Onun fikrincə, amerikalı və avropalı insanlar müasir cəmiyyətin mənfi əlamətlərindən qaçaraq İslama sığınırlar.

Beləliklə, Qərb ölkələrində müsəlmanların sayının kəskin artımı təkcə mühacirətlə deyil, İslamı qəbul edənlərin sayının artması ilə bağlıdır. Statistikaya görə, Almaniyada hər 2 saata 1 nəfər, Böyük Britaniyada isə 80 dəqiqəyə 1 nəfər İslamı qəbul edir.

Bu göstəricinin xüsusən yüksək olduğu ölkə isə Fransadır. 5 milyondan artıq müsəlmanın yaşadığı ölkədə son illər 120 mindən artıq şəxs İslamı qəbul edib. Onlar arasında Frank Riberi, Anelka və Tyeri Anri kimi tanınmış futbolçular da var. ABŞ-da isə təkcə son 12 ildə 1300-dən artıq məscidin inşa olunması İslamın sürətlə yeni qitələrə doğru yayıldığını göstərir.

Demoqrafiya üzrə ekspertlərin hesablamalarına görə, 2050-ci ildə Avropa Birliyi əhalisinin 15%-i müsəlman olacaq. Bu rəqəm 2100-cü ildə 50%-i keçəcək. Paralel olaraq, 2100-cü ildə İslam dünyada ən geniş yayılmış dinə çevriləcək. Hazırda bu dinə sitayiş edənlərin sayı 1,5 milyard nəfərdisə, 80 il sonra bu rəqəm 3,5 milyardı keçəcək.

50 yaşlı müğənni Canet Cekson isə qətərli milyarder Uissam Əl Mandandan uşaq dünyaya gətirib. Körpəsinə İsa adı verilib. Övladı dünyaya gəlməzdən öncə müğənni həyat yoldaşının təklifi ilə İslamı qəbul edib. Müğənni dinini dəyişdikdən sonra hicaba keçib.

Model Kendra Spirs şahzadə Rəhim Ağa-xan ilə ailə həyatı qurduqdan sonra islamı qəbul edib. O, adını da dəyişərək şahzadə Salva olub. Lakin əri ona fotosessiyalardan iştirak etmək qadağası qoymayıb. Cütlüyün İrfan adlı oğlu var.

**Dini mütəxəssis Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əslində insanların dinə üz tutması bir mənada ruhi ehtiyacdır. Onun sözlərinə görə, hər zaman bu tendensiya olub, lakin xüsusilə indiki narahat və mənəvi böhranın yaşadığı dünyada bu meyl daha da güclənib:** "İnsanlar ruhi rahatlığı, axtardıqları ədalət və şəfqəti dində tapırlar. Çünki ətraf cəmiyyət sürətlə qəddarlaşır, insanlar daha çox fərdiyyətçiliyə yuvarlanır. Belə bir vəziyyətdə dinlər və dini icmalar bir mənada xilas adası rolunu oynayır. İslamın bu işdə daha çox önə çıxması isə sonuncu din olan İslamda Tövhid - Tək Allah inancının mükəmməl olması ilə bağlıdır. İslam bu mənada mükəmməldir, insanların ruhi ehtiyaclarını və mənəvi boşluqlarını tamamilə dolduracaq gücədədir. Bu səbəbdən də hər nə qədər haqqında mənfi təbliğat aparılsa da, İslama yönəlmə sürətlə artır".

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Qaşıqçı işi vəliəhdin karyerasını bitirə bilər

## Trampın vəliəhd-şahzadə Məhəmməd bin Salmanı israrla qorumasının səbəbləri və taxtın gözlənilən sahibi haqda qeydlər



**Jurnalist Camal Qaşıqçının yoxa çıxması Səudiyyə Ərəbistanı üçün ciddi problemə çevrilir. ABŞ hökuməti ötən həftə Krallığın 17 yüksək rütbəli məmuruna sanksiya tətbiq edib. Ötən gün isə Almaniya hökuməti bir neçə ərəbistanlı rəsmiyə viza qadağası tətbiq edib. Eyni zamanda almanlar ərəblərə silah və texnika satışını da dayandırır.**

Hadisələr getdikcə daha da mürəkkəbləşir. Söhbət bu hadisənin regiona, xüsusən də Səudiyyə Ərəbistanı siyasi proseslərinə təsirindən gedir. Çünki əvvəldən də proqnozlaşdırıldığı kimi, hadisələr vəliəhd-şahzadə Məhəmməd bin Salmanın karyerasını təhdid edəcək məcraya yönəlir.

Artıq mətbuata vəliəhdin taca gedən yolunun bağlanacağı haqda xəbərlər çıxır. Məsələ ondadır ki, 2015-ci ildə atası kral seçildikdən sonra Məhəmməd bin Salman (Qərb mediasında qısa olaraq MBS yazılır - K.R.) hakimiyyət pillələrində sürətlə irəliləyib. 2017-ci ildə isə kraldan sonra ikinci əsas post hesab olunan vəliəhd-şahzadə postuna yüksələn MBS noyabrda Krallığın korrupsiyaya qarşı mübarizə komitəsinin sədri seçilib və 200-dək şahzadə və nüfuzlu dövlət məmurunu həbs etdirib.

Bu səbəbdən də 33 yaşlı vəliəhdin ölkə daxilində populyarlığı ilə yanaşı saray və ailə içərisində ciddi rəqibləri meydana çıxıb. Aydın məsələdir ki, indi həmin rəqibləri MBS-dən yaxalarını qurtarmağa çalışırlar. Lakin bu o qədər də asan deyil, çünki vəliəhdin ABŞ iqtidarı, eləcə də qüdrətli yəhudi lobbisi kimi müdafiəçiləri var. Buna rəğmən boynunda bir jurnalistin qətli olan siyasətçini qorumaq o qədər də asan deyil.

Artıq dünyada çox insan, hətta Səudiyyə Ərəbistanı əhalisinin böyük hissəsi də bu qətlin sifarişçisinin vəliəhd olduğuna inanır. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi də etiraf edib ki, jurnalistin qətlinin sifarişini vəliəhd verib. Türkiyə isə bunu ilk günlərdən yarı aşkar, yarı gizli bəyan edib. Bütün bunların qarşısında MBS-nin alovlu müdafiəçisi ABŞ prezidenti Tramp da tab gətirə bilməyib. ABŞ prezidenti deyib ki, vəliəhd qətli sifariş verməsi ilə bağlı ittihamları rədd edir. Eyni zamanda medianı da bu mövzunu çox şişirtməkdə ittiham edib.

Səudiyyə Ərəbistanı hakimiyyətinin isə bu məsələdən sonra necə deyərlər, sözünün etibarı azalıb. Çünki Qaşıqçının yoxa çıxması prosesində Krallıq ciddi və kobud yanlışlıqlara yol verdi. Hətta qətlin özündən də betər səhvlərlə imicini zədələdi. Məsələ ondadır ki, Ər-Riyad Camal Qaşıqçı oktyabrın 2-də Ərəbistanının İstanbul konsulluğunda yoxa çıxdıqdan sonra əvvəlcə jurnalistin konsulluğu tərk etdiyini bildirdi. Yalnız mediada çoxlu sayda dəlillər yayıldıqdan sonra oktyabrın 20-də krallıq əvvəlcə Qaşıqçının konsulluqda dindirmə zamanı qəsd olmadan öldürüldüyünü etiraf etdi, daha sonra isə rəsmi şəkildə Qaşıqçının sifarişlə öldürüldüyünü etiraf etdi. Yəni bu mövzuda 3 dəfə fərqli rəy verildi. İndi isə israrla vəliəhdi müdafiə edirlər, onun bu işi sifariş etmədiyini bildirirlər. Ancaq göründüyü kimi, artıq gecdir.

İndi isə nəzərlər Ər-Riyada dikilib. 33 yaşlı "Səhranın Lüteri" adlandırılan islahatçı, qadınlara, gənclərə yönəlmiş bir çox qadağaları ləğv etmiş və etməyə söz davam edən, "əxlaq polisini" məhdudlaşdıran, mühafizəkar din adamlarını zərərsizləşdirən, böyük iqtisadi, xüsusən də qeyri-neft sektorunda projelər ortaya qoyan, korrupsiyaya görə yüzlərlə məmur və şahzadəni cəzalandıran və buna görə dünyada məşhurlaşan MBS-nin taleyi indi tükdən asılıdır.

Əlbəttə, 5 mindən çox şahzadənin olduğu Səudiyyə Ərəbistanında taxt-tac vəliəhd sarıdan korluq çəkmir. Lakin yeni vəliəhd həm də gələcək kral deməkdir. Çünki hazırkı kral 83 yaşın içindədir, səhhəti də yaxşı deyil. Hətta bir neçə dəfə tacı oğluna ötürəcəyi xəbərləri yayılıb. İndi isə Kral dilemma qarşısındadır. Bir tərəfdən dünyadan ciddi basqılar var, nüfuzlu ölkələr və şirkətlər Krallıqla əlaqələrini məhdudlaşdırır, digər tərəfdən isə daxildə müxaliflər MBS-nin uzaqlaşdırılması üçün krala təzyiq edir.

Bir qədər əvvəl Krallıq divanının MBS-nin, yəni həm də vəliəhd postunun gələcək taleyini müzakirə etdiyi bildirilirdi. Hələlik Ər-Riyad vəliəhdin günahsız olduğunda israrçıdır.

Bu arada vəliəhd postuna namizədin adı hallanmağa başlayıb. Söhbət 76 yaşlı şahzadə Əhməd bin Əbdüləzizdən gedir. Sudayri xəttindən (Hassa əs-Sudayri hazırkı Kral Salmanın anasıdır, onun buna qədər bir neçə oğlu kral və ya vəliəhd-şahzadə olub - K.R.) olan Əhməd hazırkı kralın sağ olan yeganə qardaşıdır. Ancaq hakim ailə ilə sözləri düz gəlməyən Əhməd bin Əbdüləziz uzun müddət Londonda yaşayıb. Hətta bu ilin payızında bir qrup fəal Londonda şahzadənin evi qarşısında aksiya keçirəndə Əhməd bin Əbdüləziz aksiyaçılara onun deyil, hakimiyyətdə təmsil olunanların evi qarşısında aksiya keçirməyi tövsiyə etməklə bir mənada kralın siyasətini dəstəklədiyini bildirmişdi.

Ancaq indi situasiya dəyişib, görünür ki, kral həm özünə daha doğma olan, həm də ailəiçi müxalifətin də içərisində ciddi nüfuzu olmasına görə Əhmədlə barışmağa qərar verib. Noyabrın əvvəlində Əhməd bin Əbdüləziz Ər-Riyada qayıdıb və bu zaman böyük ehtiramla qarşılanıb. Gözlənilir ki, yaxın zamanlarda sakit bir şəkildə vəliəhd postuna Əhməd gətirilsin. Lakin təbii ki, bunun üçün əvvəlcə tərəflər arasında şərtlərdə anlaşma olmalıdır. Amma bunun üçün həm də Vaşinqtonu razı salmaq lazımdır.

O da aydın məsələdir ki, Trampın şəxsində Vaşinqton administrasiyasının MBS-ni alovlu müdafiəsinin arxasında Amerikanın regional siyasi maraqları var. Bin Salman Trampın əsasını qoyduğu və addım-addım yaxınlaşdığı Fələstin münaqişəsinin həlli ilə bağlı "100 ilin planı" layihəsinin əsas fiqurudur. Vəliəhd Vaşinqtonla koordinasiyalı şəkildə çalışır və krallıq hazırda Amerikanın Yaxın Şərqdəki əsas müttəfiqi missiyasını aparır. Əgər vəliəhd gedərsə, Trampın Fələstin münaqişəsinin həlli ilə bağlı planı pozula və ya ən azı bir neçə ay ləngiyə bilər. Halbuki ABŞ prezidenti yaxın aylarda yeni Fələstin layihəsini elan etməyə hazırlaşırdı.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Hacıyevlərlə bağlı yeni məlumatlar

## Cahangir Hacıyev xanımı barədə məhkəmədə nə demişdi?

**Beynəlxalq Bankın həbsdəki sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva hazırda London polisinin nəzarəti altındadır. Bu ayın əvvəlində onu Azərbaycan hakimiyyətinin xahişi ilə saxlamışdılar, Bakıya ekstradisiyası məsələsi gündəmə gəlmişdi. Z. Hacıyeva mənimsəmə üzrə 2 maddə ilə ittiham olunur. Onun vəkilləri qadının "fırıldaqçı" olmadığını deyir. O, Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunmuş, sonradan 500 min funt sterlinq qarşılığında zəmanətə buraxılıb. Onun Londondakı bahalı malikanəsinə elektron etiketləmə cihazı da qoyulub. Zəmanət şərtlərinə görə, o, axşam 9-dan səhər 6-dək evdə olmalıdır və hər gün Charing Cross polisinə məlumat verməlidir. O, həmçinin Londondan kənara çıxmamalı, səyahət sənədi üçün müraciət etməməlidir. Z. Hacıyeva UWO çərçivəsində öz sərvətinin mənbəyini izah etməlidir. Z. Hacıyevanın Londonda yaşadığı 10 il ərzində "Harrods" dükanında 21 milyon dollarlıq alış-veriş etməklə dünya mətbuatının gündəminə gəlib.**



Yada salaq ki, ötən ilin bu günlərində məhkəmədə Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyevin şikayətinə baxılırdı. C. Hacıyev məhkəmədəki çıxışında həyat yoldaşı ilə bağlı Londona istintaq qrupu göndərildiyini demişdi.

**C. Hacıyevin həmin çıxışından sitat:** "...Bu cinayət işində mənimsəməni sübut edən nəinki bir fakt, heç yarım fakt yoxdur. Siz nəyin əsasında mənə 17 il iş istəyirsiniz? Lap 117 il olsun, heç mənim vecimə deyil. Ancaq hamı bilməlidir ki, bu vəsaitlər hara gedib. İndi internet əsridir. Jurnalistlər Bakıda oturub internet vasitəsilə hansı şirkətin kimə məxsus olduğunu tapa bilərlər. Prokurorluğun, bir də "Bandotdel"in əməkdaşlarından ibarət bığıburma kişilər buradan durub Londona getdilər. Nə edə bildiniz? Kimisə gətirə bildiniz? 2005-ci ildə də Hacı Məmmədov məsələsində bu cür yollarla məndən 20 milyon pul istəmişdilər. Uşaqlarımın yaşadığı evi, bir maşınım var idi, onu qiymətləndirdilər...

"Qarlı aşırım"da yaxşı sözlər var. Mən onlardan birini demək istəyirəm. "Kişinin heyfini qadından almazlar". Apardığınız sənədləri özünüzə qaytarıblar. Nə "İnterpol"u, nə də Britaniya qurumlarını qane elədi. Kor-peşman qayıtdınız. 2005-ci ildən bəri ha çalışdılar ki, mən və mənə yaxın adamların nəyisə mənimsəməsi və talaması ilə bağlı fikir yaratsınlar. Ancaq heç nəyə nail olmadılar. Təkcə 2014-cü ildə Beynəlxalq Bankın 25 milyon xalis gəliri olub və mən bankı bu cür təhvil vermişəm. 15 il ərzində banka rəhbərlik etdiyim dövrdə dövlətdən bir qəpik də alınmayıb. İndi isə bank dərin problemlərə üz-üzə qalıb. Təkcə prezidentin bir qərarı ilə dövlət büdcəsindən 6 milyard pul ayrıldı...

... Britaniya vətəndaşı var, hətta bir müddət həbs də etmişdilər. Nədir ki, bura sərmayə qoyub. "İnter"in prezidenti Bolqarıstan vətəndaşı 1 il 6 aydır ki, ölkədən çıxa bilmir. Yazıq başa düşə bilmir ki, onu burada niyə saxlayıblar?"

Cahangir Hacıyevin bu çıxışı zamanında olduqca geniş rezonans doğurmuşdu. O zaman istintaq qrupuna qaytarılan sənədlərdən bəhs olunurdusa, hazırda durum fərqlidir. Zamirə Hacıyeva gələn ilin iyununa qədər adına olan əmlakların biznеslə qazanıldığını, korrupsiya ilə əldə edilmədiyini sübuta yetirməlidir. Əks təqdirdə, həmin əmlaklar müsadirə olunacaq. Maraq doğuran məsələlərdən biri də budur ki, Z.Hacıyeva bunu bacarsa, dolayısı ilə həyat yoldaşının bizneslə gəlir etməsini də sübuta yetirmiş olacaq. Yəni Cahangir Hacıyevin Londonda ailəsinə aldığı mal-mülkün korrupsiya ilə deyil, bizneslə alındığı isbat ediləcək. Bunun isə öz növbəsində Azərbaycanda Cahangir Hacıyevin barəsində çıxarılmış ittihamedici hökm və qərarların şübhə altına alınması üçün çox ciddi əsas olacağı da istisna deyil.

Qeyd edək ki, Cahangir Hacıyev 2015-ci ilin dekabrında həbs olunub və 2016-cı ilin oktyabrında Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib. Apelyasiya Məhkəməsi də hökmü qüvvədə saxlayıb. C.Hacıyev özünü təqsirli bilmir.

Cahangir Hacıyevə 3 ay əvvəl yeni ittihamlar da irəli sürülüb və o, Bakı İstintaq Təcridxanasına köçürülüb. Noyabrın 10-da Qaradağ Rayon Məhkəməsi "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti (ASC) İdarə Heyətinin keçmiş rəhbəri Cahangir Hacıyevin yeni istintaq üzrə həbs müddətinin daha 2 ay artırılması ilə bağlı qərar verib. Məlumata görə, məhkəmə ibtidai istintaqın təqdimatı əsasında qərar çıxardıb. C.Hacıyev hazırda mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət və dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi, kommersiya, qeyri-kommersiya təşkilatlarinda qulluq mənafeyi ilə bağlı cinayətlərdə ittiham olunur. Onun Cinayət Məcəlləsinin 179 (mənimsəmə), 193 (cinayət yoluyla əldə edilmiş pulların leqallaşdırılması), 213 (vergidən yayınma), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309 (vəzifə səlahiyyətlərini aşma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə istintaq edildiyi bildirilir.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

## Ziya Məmmədovun qohumunun daha bir marşrutu əlindən alındı

**Noyabrın 22-dən etibarən Xəzər rayonu Binə qəsəbəsində fəaliyyət göstərən 190 nömrəli (qəsəbədaxili) müntəzəm marşrut xəttinin fəaliyyəti dayandırılacaq.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən məlumat verilib.

Bildirilir ki, Bakı Nəqliyyat Agentliyinin İdarə Heyəti sədrinin 20.11.2018 tarixli müvafiq sərəncamına əsasən 190 nömrəli qəsəbədaxili müntəzəm marşrut xəttinin müvəqqəti istimarına dair "Ayşən LTD" MMC ilə imzalanan müqaviləyə də xitam verilib.

Virtualaz.org xatırladaq ki, "Ayşən LTD" MMC-yə məxsus marşrutlarda ciddi problemlərin olması ilə bağlı məlumatlar mətbuatda dəfələrlə işıqlandılıb. Ötən ayın əvvəlində MMC-yə məxsus 160 saylı marşrut avtobusu qatarla toqquşmuşdu və nəticədə 3 nəfər ölmüş, 30-dan çox sərnişin yaralanmışdı. Bundan sonra araşdırmalara başlanılıb və BNA 160 nömrəli müntəzəm marşrut xətti üzrə sərnişindaşıma fəaliyyətini həyata keçirən "Ayşən LTD" MMC ilə bağlanan müqaviləyə xitam verib. Noyabrın 10-dan 160 nömrəli müntəzəm marşrut xətti üzrə sərnişinlərə "Çinar-Trans" MMC tərəfindən yeni avtobuslarla xidmət göstərilir.

Qeyd edək ki, 133 və 88 saylı marşrut xətti də "Ayşən LTD" MMC-yə məxsusdur. Son illərədək 7 marşut xəttinə sahib olan şirkətin direktoru İradə Əliyeva keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qohumudur.

# Gürcüstan 600 min adamın bank borcunu silir, bəs biz...

## Ekspertlər: "Dövlətin dəstəyi olmadan problemli kreditlərin həlli mümkün deyil"




**Gürcüstan hökuməti ölkədə banka borcu olan və adları "qara siyahı"ya düşən vətəndaşların borclarının silinməsi ilə bağlı xüsusi tədbirlər həyata keçirəcək. Nəticə etibarı ilə Gürcüstanda 600 mindən çox vətəndaşın banklara, onlayn maliyyə-kredit təşkilatlarına olan borcları silinəcək.**

Gürcüstanın baş naziri Mamuka Baxtadzenin sözlərinə görə, borcların sıfırlanması prosesinə dekabrın 15-də başlanılacaq və dekabrın 31-dək başa çatdırılacaq: "Bu cür borcların təxminən 95 faizini kreditlər təşkil edir. Bu kreditlərin məbləği də hər bir şəxs üçün 2 min laridən azdır". Bildirilib ki, 600 mindən çox sosial təminat almayan, məhdud imkanları olan vətəndaşın banklar, onlayn kredit verən maliyyə təşkilatları və müxtəlif maliyyə qurumları qarşısında təxminən yarım milyard öhdəliyi var. Onların bu borcları sıfırlanacaq.

M.Baxtadze qeyd edib ki, borcların silinməsi prosesi "Kartu" Fondunun dəstəyi ilə həyata keçiriləcək. Amma bu prosesə digər maliyyə institutları da cəlb olunacaq.

Büdcəsi Azərbaycandan qat-qat aşağı olan Gürcüstanın aztəminatlı vətəndaşlarına dəstək üçün atdığı addım Azərbaycanda geniş rezonansa səbəb olub. Çünki 2015-ci ildən Azərbaycanda da vaxtı keçmiş kreditlər problemi getdikcə dərinləşməkdədir. Mərkəzi Bankın məlumatına görə, bu il oktyabrın 1-nə problemli kreditlərin həcmi 1 milyard 748,7 milyon manat təşkil edib. Bu məbləğin yarıdan çoxu - 921,5 milyon manatı xarici valyutada olan kreditlərdir.

Beləliklə də, 2018-ci ilin 9 ayında düyünə düşmüş kreditlərin məbləği 122 milyon manat artıb. Xatırladaq ki, ilin əvvəlinə vaxtı keçmiş kreditlər 1 milyard 626,7 milyon manat idi.

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu bildirir ki, Gürcüstanın belə bir qərar verməsi daxildəki siyası durumla əlaqəli olsa da, istənilən halda aşağı məbləğli borc vəsaitlərinin silinməsi praktikası baxımdan Azərbaycan üçün də maraq kəsb edə bilər:** "Təəssüflə qeyd etməliyəm ki, dəfələrlə təkliflər irəli sürülməsinə baxmayaraq, Azərbaycan hökuməti hələ də vaxtı keçmiş borcların məhkəmələr vasitəsilə həllinə çalışır və mövcud problemin çözülməsi istiqamətində heç bir addım atmır. Hesab edirəm ki, Azərbaycanda da məbləği 5 minə qədər olan borcların silinməsi hazırda getdikcə yoğunlayan borc probleminin həllinə, eləcə də borcluların sosial-iqtisadi proseslərdə iştirak imkanlarına əhəmiyyətli töhfə olardı. Rəsmi məlumatlara görə, Azərbaycanda problemli kreditlərin həcmi 1,8 milyard manat, qeyri-rəsmi məlumatlara görə, 3 milyard manatdan çoxdur. Bu məbləğ hər ay artır. Hesab edirəm ki, ilk növbədə hökumət bu borcların təsnifatını açıqlamalı, sonra isə 5 min manata qədər olan hissə ayrıca təsnif olunaraq, silinməlidir".

**İqtisadçı-ekspert Natiq Cəfərli isə deyir ki, devalvasiyalardan sonra kəskinləşən borc məsələsinə görə banklar ağır duruma düşsələr də, əhali onlardan daha çox əziyyət çəkir:** "Düzdür, bu problem banklara da mənfi təsir edir. Lakin əsas ağırlıq əhalinin üzərindədir. Kəskin devalvasiyalardan dərhal sonra hökumət bu işə müdaxilə etsəydi, daha az vəsaitlə problemi həll etmək mümkün olardı. Yalnız Beynəlxalq Bankın vaxtı keçmiş kreditləri ilə bağlı məsələ həll olundu ki, bunun da sadə insanlara heç bir aidiyyəti yoxdur".

**Ekspertə görə, Azərbaycan problemli kreditlərin həcminə görə az qala dünya liderliyi səviyyəsinə yüksəlib:** "Dünyada problemli kreditlərin həcmi ümumi kredit portfelinin 3 faizini keçdikdə banklar və hökumətlər onun yumşaldılması üçün hərəkətə keçirlər. Bizdə isə bu rəqəm 16 faiz təşkil edir. Yəni beş dəfə yüksəkdir, amma hökumət hələ də tərpənmir. Bizdə vəziyyəti kəskinləşdirən əsas məsələ budur ki, 3 ildir problemli kreditlərə görə faizlər də hesablanıb. Bir çox vətəndaşların borclarından bir neçə qat artıq faizlər toplanıb. Borcun özünü qaytara bilməyən əhali bu qədər faizi necə qaytaracaq?"

**N.Cəfərli deyir ki, hökumətin borcların silinməsinin vətəndaşlarda arxayınçılıq yaranmasına və təkrar borcların yığılmasına səbəb olacağı iddiası yanlış yanaşmadır:** "Hökumət elə mexanizm tətbiq edə bilər ki, bu hal təkrarlanmaz. Bankların kredit siyasəti üzərində nəzarət gücləndirilər. Çünki borc vətəndaşa deyil, banklara ödənilir. Buna görə də banklarda risk menecmentini gücləndirməklə belə halın təkrarlanmasının qarşısını almaq olar".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**


## Diqqət! Diqqət!!!

2012-ci ildən bütün beynəlxalq bal sərgilərinin qalibi - Qırğızıstanın dünya şöhrətli "Darı Tyanşana" şirkətinin balları və müalicəvi bal məhsulları geniş çeşidlə Bakıda:

**- Arı südü**
**- Ağ bal (Atbaşı)**
**- Qara bal (Qreçka)**
**- İssık kul balı**
**- Esparset balı**
**- Karkıra balı**
**- Uzqen balı**
**- Suusamır balı**
**- Çayek balı**
**- Mumiya**
**- Şamı nalı və s.**

Diqqətinizə çatdırırıq ki, Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır. Çatdırılma pulsuzdur.

**Əlaqə telefonları: (051) 922-15-71;**
**(055) 300-29-91**
**Ünvan: Neftçi Qurban küçəsi 103**
**5 saylı doğum evinin yaxınlığında.**


## Elan

**Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti aparatının Əhaliyə xidmət, fərdi və bağ evlərinin tikintisi üzrə baş istehsalat idarəsinin bağlar təsərrüatı idarəsi tərəfindən Muxtarov Xalid Xancan oğluna BŞİH-in 10 avqust 1993-cü il tarixli 1517 saylı qərarına əsasən Goradil bağlar sahəsində 012 ha torpaq sahəsinə verilmiş 1 nömrəli order itdiyi üçün etibarsız sayılır.**

Yeni Müsavat
N 248 (7137) 21 noyabr 2018

**Xəbər verdiyimiz kimi, Azərbaycanın ali təhsil müəssisələrində ölkənin ehtiyac duyulan ixtisaslar üzrə nüfuzlu xarici ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramları təşkil ediləcək. Bu barədə prezident İlham Əliyevin 2018-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nda deyilir.**

# İkili diplom gəlir... necə, nə ilə?

## Yeni sistem barədə bilmədiklərimiz...

### Nədir ikili diplom?

Dövlət Proqramı “2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə və nailiyyətlərdən faydalanaraq, müasir kompetensiyalara malik insan resurslarına olan ehtiyacın Azərbaycanın ali təhsil müəssisələrində hazırlanması yolu ilə Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə hazırlanıb. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

Qeyd olunur ki, ali təhsil müəssisələrinin inkişafına dəstək verilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi vacib prioritetlərdəndir. ABŞ, Almaniya, Avstraliya, Böyük Britaniya, Fransa və Yaponiya kimi ölkələrdə, xüsusilə ötən əsrin sonlarından etibarən aktuallaşmış transmilli təhsil modelinin Azərbaycanda tətbiqi uğurlu nəticənin əldə olunmasına şərait yaratmalıdır. Bu baxımdan beynəlxalq ikili diplom proqramlarının ölkəmizdə tətbiqinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar, ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkili təmin edilməlidir.

### Həm yerli, həm xarici müəllimlər...

Dövlət Proqramı çərçivəsində Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi üçün ilkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramının təsis olunması və onların icrasına dair monitorinqin nəticələrinə uyğun olaraq layihənin davam etdirilməsi, bu məqsədlə nüfuzlu xarici tərəfdaş ali təhsil müəssisələrinin seçimi, xarici mütəxəssislərin cəlb olunması ilə Azərbaycanın ali təhsil müəssisələrində inzibati heyətin təlimi proqramlarının, elmi-pedaqoji (professor-müəllim heyəti, elmi işçilər) heyətin təlimi və tədris proqramlarının yenilənməsi, beynəlxalq ikili diplom proqramının maliyyələşdirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

*- Azərbaycanın ali təhsil müəssisələrində ölkənin ehtiyac duyulan ixtisas proqramları üzrə nüfuzlu xarici ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramlarının təşkili;*

*- beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi Azərbaycan ali təhsil müəssisələrində cəlb ediləcək xarici professor-müəllim heyətinin kurikulumların yenilənməsi işinə cəlb edilməsi;*

*- beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin seçilməsi prosedurları və meyarlarının hazırlanması;*

*- əmək bazarının tələbatı nəzərə alınmaqla, beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi Azərbaycan ali təhsil müəssisələrində çalışacaq əcnəbi professor-müəllim heyətinin mühazirəyə cəlb ediləcəyi tədris fənlərinin siyahısının hazırlanması;*

*- beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi Azərbaycan ali təhsil müəssisələrində yerli və əcnəbi professor-müəllim heyətinin iştirakı ilə qrant əsaslı elmi-tədqiqat proqramlarının həyata keçirilməsi;*

*- xarici ali təhsil müəssisələrində çalışan azərbaycanlı mütəxəssislərin beynəlxalq ikili diplom proqramlarının təsis edildiyi Azərbaycan ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb edilməsinin təmin olunması və digər tədbirlər.*



### Kamran Əsədov: “İkili diplom Azərbaycan ali təhsilinin beynəlxalq imici üçün çox vacibdir”

**Təhsil eksperti Kamran Əsədov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, hazırda ikili diplom birgə təhsil proqramlarının həyata keçirilməsinin ən geniş yayılmış formasıdır. İkili diplom (üçlü və s.) -birgə inteqrasiya olunmuş təhsil proqramını həyata keçirən iki və daha çox universitet tərəfindən rəsmi şəkildə verilən iki və ya daha çox milli diplomdur. Müsahibimiz ikili diplomun universitetə nə verdiyi ilə bağlı sualın cavabında aşağıdakıları sadaladı:** “İkili diplomlar universitetə nə verir? Rəqabət qabiliyyətini artırır, tədris proqramlarının beynəlmiləlləşməsi, ali təhsil müəssisəsinin ümumavropa məkanına daxil olması, tədris proqramlarının təkmilləşdirilməsi və keyfiyyətinin təmin olunması, metodik və araşdırma fəaliyyətinin keyfiyyətinin artırılması, universitetdə infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi, rəhbər və müəllimlərin yeni bacarıqları, tədrisin keyfiyyətinin yüksəldilməsi, Boloniya prosesindən irəli gələn dəyişikliklərin təcrübədə qavranılması.

Avropa Birliyinin birgə diplomların tanınması (qəbul edilməsi) ilə bağlı tövsiyələrində qeyd olunur ki, birgə diplom ikidən az olmayan universitet və ya universitet ilə universitetlər tərəfindən və ya digər müəssisələrin yardımı ilə hazırlanan və ya həyata keçirilən təhsil proqramı əsasında fəaliyyət göstərən digər müəssisə tərəfindən verilən birgə diplom kimi başa düşülməlidir".

**Müsahibimiz dedi ki, son illər ərzində ölkədə ali təhsilin inkişafı üçün lazımi şərait yaradılsa da, bizim universitetlər dövlətin və cəmiyyətin yüksək ixtisaslı mütəxəssislərə olan tələbatının ödənilməsi üçün lazımi fəaliyyət göstərmirlər. Onun sözlərinə görə, Azərbaycan prezidenti dayanıqlı təhsil sistemi və standartlara uyğunluq yaratmaq məqsədilə təhsilin inkişafı üzrə Dövlət Strategiyasını imzalayıb:** “Amma bizim üniversitetlər nəinki beynəlxalq arena üçün, heç daxili bazar üçün dayanıqlılığa malik deyillər.

Azərbaycanda universitet tələbələrinin yalnız 1,2 faizi kənd təsərrüfatı ixtisasları qrupu üzrə təhsil alır. Bu o deməkdir ki, bizim ali təhsil müəssisələrimiz rəqabətə davamlı iqtisadiyyatın formalaşmasına kömək edə bilməzlər. Hətta bu universitet tələbələrinə ikili yox, 3-4-lü diplom versək də keyfiyyət artmayacaq. Çünki bizim ali təhsil müəssisələrimizdə kadr hazırlığını həyata keçirən müəllim ordusunun özünün bilik və bacarıqları müasir dövrün tələblərinə cavab vermir".

**K.Əsədov eyni zamanda dedi ki, 25-34 yaşlı ali təhsillilərin 67 faizi dövlət sektorunda cəmlənib. Bu isə özəl sektorda ixtisaslı işçi qüvvəsinin çatışmazlığı problemini yaradıb. Onun fikrincə, yenə də bu ikili diplom məsələsi dövlət univesitetlərinə tətbiq ediləcək və onsuz da aşağı səviyyədə olan özəl ali təhsil müəssisələrinin kənarda qalması deməkdir:** “Hesab edirəm ki, ikili diplom layihəsi hər 100 000 nəfərə düşən universitet tələbələrinin sayına görə göstəriciləri əhəmiyyətli dərəcədə artırmağa imkan verəcəkdir. Təəssüflə yenə də qeyd edirəm ki, ali təhsil müəssisələrini bitirən şəxslərin sayı da, keyfiyyəti də iqtisadiyyatın tələbatı ilə üst-üstə düşmür. Ona görə də ilk növbədə ali təhsil müəssisələrində keyfiyyəti qaldırmaq lazımdır. Əksər özəl ali təhsil müəssisələrini bitirən məzunların işlə təminatında da ciddi problemlər vardır. Çünki bəzi istisnalar olmaqla, həmin məzunların ixtisas üzrə hazırlıq səviyyəsi qaneedici olmur, rəqabətdə asanlıqla uduzurlar. Məlumdur ki, özəl ali təhsil müəssisələrinin bir çoxu pedaqoji kadr hazırlığı ilə də məşğul olur. Müşahidələr, rayon təhsil şöbələri və ümumtəhsil məktəbləri rəhbərlərinin rəyləri göstərir ki, həmin ali təhsil müəssisələrini bitirmiş və müəllim ixtisasına yiyələnmiş məzunlar nəinki öz ixtisası üzrə, hətta elementar pedaqoji, psixoloji və metodik hazırlığa belə malik olmurlar. Ümumilikdə belə bir təsəvvür yaranır ki, onlar ixtisasları üzrə təhsil almamışlar. Təxmin etmək olar ki, digər sahələr üzrə hazırlanan kadrların əksəriyyəti də bu səviyyədədir”.

**Təhsil eksperti eyni zamanda dedi ki, Azərbaycanın Boloniya prosesinə qoşulması ilə əlaqədar bir neçə özəl ali təhsil müəssisəsi istisna olmaqla, ümumilikdə bu istiqamətdə aparılan işləri qənaətbəxş hesab etmək olmaz. Əslində özəl təhsil müəssisələri bu prosesdə daha fəal iştirak etməli, Avropa məkanına inteqrasiya, rəqabətqabiliyyətli kadr hazırlığı sahəsində səylərini artırmalıdırlar:** “Özəl təhsil müəssisələrinin nazirliyə təqdim etdikləri məlumata əsasən, Boloniya Bəyannaməsinin əsas tələblərindən olan tədrisin kredit sistemi ilə təşkili bütün kurslar üzrə 7487 tələbəni əhatə etmişdir ki, bu da ümumi tələbə kontingentinin 39,2 faizini təşkil edir. Yəni ikili diplom verməklə bu problemin aradan qaldırılması mümkün deyil. Əlbəttə ki, ikili diplom Azərbaycan ali təhsilinin beynəlxalq imici üçün çox vacibdir. Bizim diplomların xarici ölkələrdə də qəbul edilməsi istiqamətində mühüm addımdır. Amma düşünürəm ki, keyfiyyətsiz kadr hazırlığı həyata keçirib ikili diplom verməkdənsə, ali təhsilin keyfiyyətini artırdıqdan sonra bunu həyata keçirmək lazımdır”.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 248 (7137) 21 noyabr 2018



## Ərə getmək üçün hər şeyi gəlin paltarında etdi

Nyu-York sakini hər şeyi toy paltarında etməyə qərar verdi. O, bununla bəyin diqqətini özünə çəkmək istədi. Bu barədə "Inside Edition" nəşri xəbər verib. Qızın sözlərinə görə, bu ideya onun ağlına rəfiqələri internetdəki uğursuz tanışlıqlar barəsində danışanda gəlib: "Mən ərə getməyi çox istəyirəm. Ciddi münasibət qurmağı çox arzulayıram. Ona görə də özümə elə bir profil quracağam ki, orada gəlin paltarında hər şey edirəm.

İnternetdən gəlinlik paltarı və fata sifariş edən qız öz planını həyata keçirməyə girişdi. O, gəlinlik paltarında mağazaya gedib və orda alış-veriş edib. İndi gəlinlik paltarında Paris və İsrailə getməyi planlaşdırır.

"İnsanlar məni gəlinlik paltarında görməyi sevirlər. Onlar əl çalır, məni ruhlandırırlar, "məhz belə lazımdır" deyirlər". Bunu da gəlin olmağa hazırlaşan qız deyib. Onun sözlərinə görə, bir dəfə bu vəziyyətdə olanda aktrisa və ssenarist Tina Feyi də görüb. Sonuncu onun bu halını çox gülməli və diqqət çəkən hesab edərək, şəkillərini çəkib. Qız deyir ki, artıq onun bu layihəsinin xeyli faydaları da olub. Belə ki, bir neçə görüşə gedib, amma axtarışlarını davam etdirməyi planlaşdırır.

# 25 min dollar tapdılar və onu sahibinə qaytardılar

Amerikanın Corciya ştatının Rinkon şəhərində ailəvi cütlük pulla dolu çanta tapıb və onu ailəsinə geri qaytarıb. Bu barədə WSB-TV xəbər verib. İnkassator çantasını Cef və Mişel Qrin tapıblar və onun içində 25 min dollar olub. Cütlük bu pulu polisə qaytarıb.



Həmin vaxta qədər polisdə bu itki barədə məlumat var idi. Bundan öncə mağazanın sahibi Qutambhay Patel polisə məlumat vermişdi ki, içi pulla dolu çanta itirib. Polisdə araşdırma aparılıb və ümid ediblər ki, anlaqlı vətəndaşlar bu pulu tapacaqlar. Rinkon polis departamenti hər iki tərəfin görüş fotosunu departamentin facebook səhifəsində dərc edərək bildirib ki, qanun da, vicdan da itmiş pulun sahibinə qaytarılmasını tələb edir. 14 noyabrda xəbər verildi ki, Rumıniyanın Bikici kənd sakini satın aldığı köhnə şkafda 95 min avro pul tapıb. Kişi o pulun qanuni sahibini tapıb və pulu ona qaytarıb.

# Ölmüş veteranın medalları oğurlandığı üçün onu basdıra bilmirlər



**Böyük Britaniyada veteran ailəsi onun dəfn mərasimini qeyri-müəyyən vaxta qədər təxirə salıb. Buna onun döyüş mükafatlarının itməsi səbəb olub. "The Mirror" nəşrinin yazdığına görə, İkinci Dünya müharibəsi qəhrəmanının medal və ordenlərini onun ölümündən bir həftə sonra oğurlayıblar.**

Kişi bu ilin 4 noyabrında, 98 yaşında dünyasını dəyişib. Normandiyanın boşaldılmasında iştirak edən kişinin son arzusu bu olub ki, dəfn mərasimində bütün orden və medalları nümayiş olunsun. Daha sonra kişi vəsiyyət etdi ki, bütün mükafatlarını 8 yaşlı nəticəsinə versinlər. Oğrular veteranın evinə 10-13 noyabr tarixlərində giriblər. Onlar arxa qapını sındıraraq, yeddi mükafat, o cümlədən kişiyə verilmiş fəxri diplomları götürüblər.

"Bizim ürəyimiz ona görə parçalanıb ki, kimsə bu qədər dəhşətli bir əməl törədib. Bu mükafatlar onun qüruru və heysiyyəti idi" - bunu da ailə üzvləri deyiblər. Onlar bu mükafatları satan oğrular barədə məlumatı ola biləcək bütün satıcılara, əntiq əşya mağazası sahiblərinə bu haqda xəbər yollayıblar. Veteranın ailəsi bəyan edib ki, hətta oğrulara istədikləri məbləği ödəməyə və əlavə heç bir sual verməməyə də razıdılar. Veteranın qızı Pikok oğrulara müraciətində belə deyib: "Əgər sizin ürəyiniz varsa, mənim atama ürək rahatlığı ilə ölməyə imkan verin və mükafatlarını geri qaytarın. Mən sizə yalvarıram".

Qadın eyni zamanda etiraf edib ki, mükafatların yenisi ilə əvəzlənməsi versiyasına da baxır. Bu məqsədlə o, ölkənin Müdafiə Nazirliyi, eləcə də Fransa səfirliyi ilə əlaqə saxlayıb. Polis mükafatların satılması ilə bağlı cinayət işi qaldırıb.




**QOÇ** - Şəxsi planlarınızda bəzi redaktələrə ehtiyac duyulur. Bir çox məsələlərə yenidən baxmağınız məsləhətdir. Çalışın ki, indiki həlledici məqamda yanlışlığa yol verməyəsiniz.

**BUĞA** - Sağlamlığınızla bağlı xırda narahatçılıq gözlənilir. Təzyiqinizin düşmə ehtimalı var. Maddi çətinliklərə görə bədbinləşməyin. Çünki əhalinin böyük əksəriyyəti sizdən də pis dolanır.

**ƏKİZLƏR** - Görəcəyiniz işləri xırda detallarına qədər analiz etməyiniz məsləhətdir. Adi bir yanlışlıq planlarınızı poza bilər. Günün ikinci yarısında maliyyə problemlərinizi həll edə bilərsiniz.

**XƏRÇƏNG** - Fəaliyyət göstərdiyiniz sahələrdə həmkarlarınızla mübahisələriniz gözlənilir. Bu istiqamətdə ayıq-sayıqlıq göstərməyiniz vacibdir. Günün ikinci yarısı sövdələşmə üçün ideal vaxtdır.

**ŞİR** - Qarşılaşacağınız hadisələrin əksəriyyəti çıxaracağınız qərarlardan birbaşa asılı olacaq. Bu səbəbdən də atacağınız hər bir addımda zərgər dəqiqliyi nümayiş etdirməlisiniz. Səfərə çıxmayın.

**QIZ** - Hər şeyə diqqətlə yanaşın, apardığınız hər bir sövdələşmədə analitik qabiliyyətinizi və məntiqinizi işə salın. Yalnız bu halda uğur görünür. Axşama doğru sağlamlığınıza diqqət yetirin.

**TƏRƏZİ** - İşgüzar aktivliyinizin yüksələcəyi gözlənilir. Bu səbəbdən də qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdırmaqda çətinlik çəkməyəcəksiniz. Axşama yaxın sürprizlər labüddür.

**ƏQRƏB** - Yaxşı olar ki, qeyri-ənənəvi və ya riskli işlərə girişməyəsiniz. Əks təqdirdə, cəhdləriniz baş tutmayacaq. Ümumiyyətlə, bu təqvimdə neytral mövqedə dayanmağınız məsləhətdir.

**OXATAN** - Qərarlarınızda qəti olsanız, gün ərzində heç bir maneə ilə rastlaşmayacaqsınız. Ulduzlar müdafiənizdə durduğundan daxili narahatçılığınız da əriyəcək. Ədalətli olun.

**OĞLAQ** - Səhər saatlarında bəzi anlaşılmazlıqlarla rastlaşdığınızdan süstləşə bilərsiniz. Lakin günün əsas hissəsində potensial imkanlarınız genişlənəcək. Bəxtinizdən şikayətlənməyin.

**SUTÖKƏN** - Nəzərdə tutduğunuz hər bir fiziki işi təxminən saat 15-ə qədər yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə passivləşəcəyiniz mümkündür. Axşam qonaq getməyə dəyər.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvim qarşılıqlı anlaşma şəraitində cərəyan edəcək. Sizə qarşı yönələn şübhələri dəf etməyi bacaracaqsınız. Bu amil xüsusilə sevgi istiqamətinə yönəlməlidir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadın dikdaban geyinəndə... kişilər ona yardım etmək istəyir



Fransadakı Bretagne-Sud Universitetinin alimləri maraqlı bir araşdırma aparıblar. Araşdırmanın nəticələrinə görə, kişilər dikdaban ayaqqabı geyinən qadınlara daha çox yardım edir, nəinki dabansız tufli geyinənlərə. Nikolas Gueguen və heyəti tərəfindən aparılan araşdırma nəticəsində məlum olub ki, kişilər dikdaban geyinən qadınları digərlərindən daha cazibədar hesab edir və onların hər cür çətinliyini həll etməyə meyllidir. Onlar hesab edirlər ki, bu cür ayaqqabılı qadınlar daha zərifdir və yardıma ehtiyac duyur. Son təcrübədə isə araşdırma qrupu bir kafedə kişilərin dikdaban geyinən qadınlarla nə dərəcədə tez ünsiyyət qurmasını üzə çıxarıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100